Azərişıq
Açıq Səhmdar Cəmiyyəti
31 dekabr 2018-ci il tarixində tamamlanan il üzrə Maliyyə Hesabatları və Müstəqil Auditorların Hesabatı

Mündəricat

Müstəqil Auditorların Hesabatı	3
Mənfəət və ya Zərər və Sair Məcmu Gəlir haqqında Hesabat	6
Maliyyə Vəziyyəti haqqında Hesabat	7
Kapitalda Dəyişikliklər haqqında Hesabat	8
Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat	9
Maliyyə Hesabatlarına dair Qeydlər	11

KPMG Audit Azərbaycan MMC
Port Baku Cənub Qüllələri,
12-ci mərtəbə, 153 Neftçilər prospekti, Bakı,
AZ1010, Azərbaycan
Telefon: +994 (12) 404 8910/11
Faks: +994 (12) 404 8914
İnternet: www.kpmg.az

Müstəqil Auditorların Hesabatı

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə:

Rəy

Biz "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin ("Şirkət") 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə bitmiş il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim rəyimizə görə, əlavə edilən maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından, Şirkətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə bitmiş il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

Rəy üçün Əsas

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Həmin standartlar əsasında bizim məsuliyyətlərimiz hesabatımızın Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti hissəsində təqdim edilir. Biz Mühasiblər üçün Beynəlxalq Etik Standartlar Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinə (IESBA Məcəlləsi) və Azərbaycan Respublikasında maliyyə hesabatlarının auditinə müvafiq olan etik tələblərə əsasən Şirkətdən müstəqilik və bu tələblər və IESBA Məcəlləsi üzrə digər etika məsuliyyətlərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

"KPMG Audit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmışdır və İsveçrə şirkəti olan "KPMG International Cooperative" ("KPMG International") müstəqil üzv şirkətlər şəbəkəsinin üzvüdür.

Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İqtisadi Subyektin İdarə edilməsinə Cavabdeh olan Səlahiyyətli Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının BMHS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdimatına, habelə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli təhriflərin müşahidə olunmadığı maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin qənaətinə əsasən zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Rəhbərliyin Şirkəti likvidasiya etmək və ya əməliyyatları dayandırmaq niyyətinin olduğu və ya qeyd edilən tədbirlərdən başqa real alternativinin olmadığı hallar istisna olmaqla, maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Şirkətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsi, müvafiq hallarda fəaliyyətin fasiləsizliyi ilə bağlı məsələlərin açıqlanması və hesabatların fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Şirkətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti

Bizim məqsədimiz maliyyə hesabatlarında, fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi əhatə edən auditor hesabatını təqdim etməkdən ibarətdir. Kifayət qədər əminlik yüksək əminlik səviyyəsi olsa da, BAS əsasında aparılmış auditin əhəmiyyətli təhrifi hər zaman aşkar edəcəyinə zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və istifadəçilərin bu maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlara ayrı-ayrılıqda yaxud ümumilikdə təsir edə bilməsi əsaslı şəkildə ehtimal edildiyi halda əhəmiyyətli hesab edilir.

BAS əsasında aparılmış audit çərçivəsində biz bütün audit müddətində peşəkar mülahizə tətbiq edir və peşəkar skeptikliyi qoruyub saxlayırıq. Biz həmçinin:

— Fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri riskini aşkar edir və qiymətləndirir, həmin risklərə uyğun audit prosedurlarını işləyib hazırlayır və icra edir, rəyimizi bildirmək üçün yetərli və müvafiq olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riski səhv nəticəsində yaranan riskdən daha yüksəkdir, çünki fırıldaqçılıq gizli sözləşmə, dələduzluq, bilərəkdən səhv buraxılma, məlumatın təhrifli təqdimatı və ya daxili nəzarətə əməl olunmamasından ibarət ola bilər.
— Şirkətin daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik.
— Rəhbərlik tərəfindən tətbiq edilən uçot siyasətlərinin müvafiqliyini və aparılmış mühasibatlıq hesablamalarının və əlaqəli açıqlamaların əsaslı olmasını qiymətləndiririk.

— Rəhbərliyin fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin müvafiqliyi və əldə etdiyimiz audit sübutuna əsasən, Şirkətin fasiləsiz fəaliyyətini davam etdirmək qabiliyyətini mühüm şübhə altına sala bilən hadisə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmaması barədə qənaətə gəlirik. Əgər biz əhəmiyyətli qeyri-müəyyənliyin olması qənaətinə gəlsək, öz auditor hesabatımızda diqqəti maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara yönəltməli və ya bu cür açıqlamalar qeyri-adekvat olduqda, rəyimizi modifikasiya etməliyik. Bizim nəticələrimiz auditor hesabatımızın tarixinə qədər əldə edilmiş audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisə və ya şəraitlər Şirkətin fasiləsiz fəaliyyətini dayandırmasına səbəb ola bilər.

— Maliyyə hesabatlarının, o cümlədən açıqlamaların ümumi təqdimatı, strukturu və məzmununu, habelə maliyyə hesabatlarının əsas əməliyyat və hadisələri düzgün təqdim edib-etməməsini qiymətləndiririk.

Biz digər məsələlərlə yanaşı, auditin planlaşdırılan həcmi və müddəti və mühüm audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlarla bağlı iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərlə əlaqə yaradırıq.

Hazırkı müstəqil auditorların hesabatının hazırlanması ilə nəticələnmiş audit layihəsinin rəhbəri:

"KPMG Audit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti
KPMG Audit Azerbaijan Limited Liability Company

Hikmet Murat Karakaş

KPMG Audit Azərbaycan MMC

Bakı, Azərbaycan

8 may 2019-cu il

'000 AZN	**Qeyd**	**2018**	**2017***
Gəlirlər	6	1,205,021	1,176,830
Satışın maya dəyəri	7	(1,097,307)	(1,075,721)
Ümumi mənfəət		**107,714**	**101,109**
Paylama xərcləri	8	(43,292)	(40,827)
İnzibati xərclər	9	(51,076)	(39,966)
Debitor borcları üzrə dəyərsizləşmə zərəri	24(b)(ii)	(11,774)	20,860
Sair xərclər	10	(13,258)	(26,469)
Sair gəlirlər	10	48,510	29,370
Əməliyyat fəaliyyətlərindən gəlirlər		**36,824**	**44,077**
Xalis maliyyə xərcləri	11	(6,555)	(154)
Mənfəət vergisindən əvvəlki mənfəət		**30,269**	**43,923**
Mənfəət vergisi xərci	12	(17,350)	(25,973)
İl üzrə mənfəət və cəmi məcmu gəlir		**12,919**	**17,950**

* Şirkət 1 yanvar 2018-ci il tarixində ilk dəfə MHBS 15 və MHBS 9-u tətbiq etmişdir. Seçilən keçid üsullarına əsasən müqayisəli məlumat təkrar təqdim edilməmişdir. Müqayisəli məlumat yeni dəyərsizləşmə zərəri bəndinə görə təkrar göstərilmişdir. Bax: Qeyd 5.

’000 AZN	Qeyd	31 Dekabr 2018	31 Dekabr 2017*
Aktivlər			
Əmlak, qurğu və avadanlıq	13	2,057,356	1,753,427
Uzunmüddətli aktivlər üçün avanslar		6,550	49,374
Qeyri-maddi aktivlər		3,239	3,263
Uzunmüddətli aktivlər		**2,067,145**	**1,806,064**
Mal-material ehtiyatları	14	46,149	27,883
Əvəzləşdirilə bilən ƏDV		17,754	19,609
Ticari və sair debitor borcları	15	77,491	82,579
Pul vəsaitləri və onların ekvivalentləri	16	19,172	46,928
Sair aktivlər	17	10,115	62,095
Cari aktivlər		**170,681**	**239,094**
Cəmi aktivlər		**2,237,826**	**2,045,158**
Kapital			
Nizamnamə kapitalı		1,678,705	1,460,634
Əlavə ödənilmiş kapital		223,827	306,656
Yığılmış zərərlər		(330,263)	(246,249)
Cəmi kapital		**1,572,269**	**1,521,041**
Öhdəliklər			
Kreditlər və borc öhdəlikləri	21	490,318	305,622
Əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər üzrə ehtiyat	20	1,885	2,002
Təxirə salınmış vergi öhdəlikləri	12	22,714	42,439
Uzunmüddətli öhdəliklər		**514,917**	**350,063**
Kreditlər və borc öhdəlikləri	21	68,562	8,659
Ticari və digər kreditor borcları	19	34,350	125,024
Əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər üzrə ehtiyat	20	299	277
Alınmış avanslar	22	43,689	38,328
ƏDV və digər vergi borcları		3,740	1,766
Cari öhdəliklər		**150,640**	**174,054**
Cəmi öhdəliklər		**665,557**	**524,117**
Cəmi kapital və öhdəliklər		**2,237,826**	**2,045,158**

* Şirkət 1 yanvar 2018-ci il tarixində ilk dəfə MHBS 15 və MHBS 9-u tətbiq etmişdir. Seçilən keçid üsullarına əsasən müqayisəli məlumat təkrar təqdim edilməmişdir. Bax: Qeyd 5

Maliyyə vəziyyəti haqqında hesabat maliyyə hesabatlarının tərkib hissəsini təşkil edən və 11-61-cı səhifələrdə olan qeydlərlə birgə oxunmalıdır.

'000 AZN	**Qeyd**	**Nizamnamə kapitalı**	**Əlavə ödənilmiş kapital**	**Yığılmış zərərlər***	**Cəmi kapital**
1 yanvar 2017-ci il tarixinə qalıq		**623,534**	**958,367**	**(264,217)**	**1,317,684**
Cəmi məcmu gəlir					
İl üzrə mənfəət		-	-	17,950	17,950
İl üzrə cəmi məcmu gəlir		**-**	**-**	**17,950**	**17,950**
Şirkət sahibləri ilə əməliyyatlar					
Dövlətdən əldə olunmuş vəsaitlər		-	158,982	-	158,982
Əlavə ödənilmiş kapitaldan nizamnamə kapitalına köçürmə		810,693	(810,693)	-	-
Əvvəlki ilin vergi öhdəliklərindən nizamnamə kapitalına köçürmə		26,407	-	-	26,407
Azərenerji ASC-dən aktivlərin ötürülməsi		-	-	18	18
Şirkətin sahibləri ilə cəmi əməliyyatlar		**837,100**	**(651,711)**	**18**	**185,407**
31 dekabr 2017-ci il tarixinə qalıq		**1,460,634**	**306,656**	**(246,249)**	**1,521,041**
MHBS 9-un ilkin tətbiqi zamanı düzəlişlər	5B	-	-	(12,353)	(12,353)
1 yanvar 2018-ci il tarixinə düzəliş edilmiş qalıq		**1,460,634**	**306,656**	**(258,602)**	**1,508,688**
Cəmi məcmu gəlir					
İl üzrə mənfəət				12,919	12,919
İl üzrə cəmi məcmu mənfəət		**-**	**-**	**12,919**	**12,919**
Şirkət sahibləri ilə əməliyyatlar					
Dövlətdən əldə olunmuş vəsaitlər	18 (a)	-	84,110	-	84,110
Əlavə ödənilmiş kapitaldan nizamnamə kapitalına köçürmə	18 (a)	10,000	(10,000)	-	-
Ümumi nəzarət altında əməliyyat	23	208,071	(156,939)	(84,580)	(33,448)
Şirkət sahibləri ilə cəmi əməliyyatlar		**218,071**	**(82,829)**	**(84,580)**	**50,662**
31 dekabr 2018-ci il tarixinə qalıq		**1,678,705**	**223,827**	**(330,263)**	**1,572,269**

* Şirkət 1 yanvar 2018-ci il tarixində ilk dəfə MHBS 15 və MHBS 9-u tətbiq etmişdir. Seçilən keçid üsullarına əsasən müqayisəli məlumat təkrar təqdim edilməmişdir. Bax: Qeyd 5.

Kapitalda dəyişikliklər haqqında hesabat maliyyə hesabatlarının tərkib hissəsini təşkil edən və 11-61-cı səhifələrdə olan qeydlərlə birgə oxunmalıdır.

’000 AZN	Qeyd	2018	2017*
Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını			
Mənfəət vergisindən əvvəlki mənfəət		30,269	43,923
Düzəlişlər:			
Köhnəlmə və amortizasiya xərcləri		96,415	80,017
Ticari və digər debitor borcların dəyərsizləşməsi üzrə zərər	24 (b) (ii)	11,774	-
Ümidsiz borclar üzrə ehtiyatın bərpası üzrə gəlir		-	(20,860)
Əmlak, qurğu və avadanlıqların silinməsi üzrə xalis zərər		131	1,320
Əvəzsiz əldə olunmuş aktivlər	6	(4,377)	(26,316)
Xalis maliyyə xərcləri	11	6,555	154
Köhnəlmiş mal-materiallar üzrə ehtiyatda dəyişiklik		-	303
Əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər üzrə ehtiyatda dəyişiklik		(95)	336
Digər borcların silinməsi	19	(24,157)	(29,331)
Əvvəlki ilin ƏDV öhdəlikləri hesabına nizamnamə kapitalında artım		-	12,508
Əvvəlki illərdə silinmiş ƏDV aktivlərinin bərpa olunması	10	(24,254)	-
		92,261	**62,054**
Dəyişikliklər:			
Ehtiyatlar		(18,266)	(3,194)
Əvəzləşdirilən ƏDV		1,855	(1,609)
Ticari və digər debitor borcları		(19,039)	29,441
Sair aktivlər		(8,351)	(9,795)
ƏDV və digər vergi borcları		1,974	(288)
Ticari və digər kreditor borcları		(25,559)	(10,605)
Alınmış avanslar		5,361	8,686
Mənfəət vergisindən və faizlərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını		**30,236**	**74,690**
Ödənilmiş faiz	21(k)	(9,198)	(949)
Əməliyyat fəaliyyətindən daxil olan/(istifadə olunan) xalis pul vəsaitləri		**21,038**	**73,741**
İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitləri			
Alınmış əmlak, qurğu və avadanlıq		(330,895)	(443,106)
Qeyri-maddi aktivlərin alınması		(697)	(434)
İnvestisiya fəaliyyətindən istifadə olunan xalis pul vəsaitləri		**(331,592)**	**(443,540)**

Pul vəsaitlərinin hərəkəti haqqında hesabat maliyyə hesabatlarının tərkib hissəsini təşkil edən və 11-61-cı səhifələrdə olan qeydlərlə birgə oxunmalıdır.

'000 AZN	**Qeyd**	**2018**	**2017***
Maliyyə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını			
Əlavə ödənilmiş kapital üzrə daxilolmalar		75,470	167,123
Borclar üzrə daxilolmalar	21 (k)	212,885	246,263
Borcların ödənişi	21 (k)	(4,881)	(6,305)
Maliyyə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri		**283,474**	**407,081**
Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım/(azalma)		**(27,080)**	**37,282**
Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri		(676)	68
1 yanvar tarixinə pul vəsaitləri və onların ekvivalentləri	16	46,928	9,578
31 dekabr tarixinə pul vəsaitləri və onların ekvivalentləri	16	**19,172**	**46,928**

* Şirkət 1 yanvar 2018-ci il tarixində ilk dəfə MHBS 15 və MHBS 9-u tətbiq etmişdir. Seçilən keçid üsullarına əsasən müqayisəli məlumat təkrar təqdim edilməmişdir. Bax: Qeyd 5

Qeyd	Səhifə
1. Hesabatı hazırlanan müəssisə	12
2. Mühasibat uçotunun əsasları	13
3. Əməliyyat və təqdimat valyutası	13
4. Ehtimal və mühakimələrin tətbiqi	13
5. Əsas uçot siyasətlərində dəyişikliklər	14
6. Gəlir	19
7. Satış xərcləri	23
8. Paylama xərcləri	23
9. İnzibati xərclər	24
10. Sair gəlirlər və xərclər	24
11. Xalis maliyyə xərcləri	25
12. Mənfəət vergisi xərci	25
13. Əmlak, qurğu və avadanlıq	28
14. Mal-material ehtiyatları	30
15. Ticari və sair debitor borcları	30
16. Pul vəsaitləri və onların ekvivalentləri	31
17. Sair aktivlər	31

Qeyd	Səhifə
18. Kapital və ehtiyatlar	31
19. Ticari və sair kreditor borcları	33
20. Əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər üzrə ehtiyat	34
21. Kreditlər və borc öhdəlikləri	34
22. Alınmış avanslar	37
23. Ümumi nəzarətdə olan əməliyyat	38
24. Ədalətli dəyərlər və risklərin idarə edilməsi	39
25. Şərti öhdəliklər	44
26. Əlaqəli tərəflər	45
27. Qiymətləndirmənin əsasları	47
28. Əsas uçot siyasətləri	48
29. Qəbul edilməmiş yeni standartlar və şərhlər	60

1. Hesabatı hazırlanan müəssisə

(a) Biznes mühiti

"Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin ("Şirkət") fəaliyyəti əsasən Azərbaycan Respublikasının ərazisində yerləşir. Beləliklə, Şirkət inkişafda olan bazar iqtisadiyyatının xüsusiyyətləri ilə səciyyələnən Azərbaycanın iqtisadi və maliyyə bazarlarında fəaliyyətlə bağlı risklərə məruz qalır. Hüquqi, vergi və normativ baza və rejimlərin inkişafı davam edir, lakin onların müddəalarının həm fərqli şərh olunması, həm də tez-tez dəyişdirilməsi müşahidə olunur. Bütün bunların və sair hüquqi və vergi maneələri nəticəsində Azərbaycanda fəaliyyət göstərən müəssisələr müxtəlif çətinliklərlə üzləşir. Bununla yanaşı, Azərbaycan manatının son zamanlarda ucuzlaşması və dünya bazarında neftin qiymətinin davamlı olaraq aşağı olması biznes mühitində qeyri-müəyyənlik səviyyəsini artırmışdır. Maliyyə hesabatlarında Azərbaycandakı biznes mühitinin Şirkətin fəaliyyətinə və maliyyə vəziyyətinə təsiri Şirkət rəhbərliyi tərəfindən qiymətləndirilir. Gələcəkdə biznes mühiti rəhbərliyin cari qiymətləndirməsindən fərqlənə bilər.

(b) Təşkilat və əməliyyatlar

Şirkət "'Bakıelektrikşəbəkə' Səhmdar Cəmiyyətinin yaradılması və idarəetməyə verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 14 iyun 2000-ci il tarixli 441 nömrəli Sərəncamına əsasən dövlətə məxsus müəssisə kimi təsis olunmuşdur. Şirkət Azərbaycan Respublikasında özəlləşdirmə proqramının tərkib hissəsi olan "Bakıelektrikşəbəkə" İstehsalat Birliyinin özəlləşdirməyə hazırlanması haqqında" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 8 noyabr tarixli, 253 nömrəli sərəncamına uyğun olaraq açıq səhmdar cəmiyyət kimi özəlləşdirilmişdir. 7 noyabr 2001-ci il tarixində şirkətin idarəetməsi "Barmek Holding A.S." şirkətinə keçirilmişdir. Daha sonra 2006-cı ildə Azərbaycan Respublikasının hökuməti ("Hökumət") "Barmek Holding A.S." şirkəti ilə müqaviləni dayandırmışdır və 11 avqust 2006-cı ildə Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyi 414 nömrəli sərəncamla "Barmek Holding A.S." şirkətindən aktivləri Şirkətə geri qaytarmağı tələb etmişdir. 10 fevral 2015-ci ildə Azərbaycan Respublikası Prezidentinin "Azərişıq ASC" haqqında Sərəncamı ilə "Bakıelektrikşəbəkə" ASC "Azərişıq" ASC adlandırılmışdır.

10 aprel 2015-ci ildə yenidən təşkil olunma nəticəsində Şirkət elektrik enerjisinin Naxçıvan Muxtar Respublikası istisna olmaqla, Azərbaycan Respublikasının bütün regionlarında sakinlərə və fiziki şəxslərə ötürülməsi və paylanmasına başlamışdır.

31 dekabr 2018-ci il tarixinə Şirkətin əsas fəaliyyəti elektrik enerjisinin sakinlərə və hüquqi şəxslərə ötürülməsi və paylanmasından ibarət olmuşdur.

Şirkətin əsas elektrik enerjisi təchizatçısı elektrik enerjisinin paylanması üzrə təbii inhisar subyekti olan dövlətə məxsus "AzərEnerji" Açıq Səhmdar Cəmiyyətidir ("AzərEnerji" ASC). Hökumət elektrik enerjisinin satışı və alışı ilə bağlı Şirkətin əməliyyatlarına təsir edir. Elektrik enerjisinin alışı və satışı üzrə Şirkətin qoyduğu tariflər Azərbaycan Respublikasının Tarif Şurası tərəfindən tənzimlənir.

Şirkətin hüquqi ünvanı: Bakıxanov küçəsi 13, AZ 1065, Bakı, Azərbaycan.

31 dekabr 2018 və 2017-cı il tarixinə Şirkət tamamilə Azərbaycan Respublikası Nazirlər Kabineti ilə təmsil olunan Hökumətə məxsus olmuşdur. Şirkətin əsas nəzarətedici tərəfi Hökumətdir.

2. Mühasibat uçotunun əsasları

(a) Uyğunluq haqqında bəyannamə

Hazırkı maliyyə hesabatları Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq hazırlanmışdır.

Bunlar Şirkətin MHBS 15 *Müştərilərlə Müqavilələr üzrə Gəlir* və MHBS 9 *Maliyyə alətləri* standartlarının tətbiq edildiyi ilk illik hesabatlarıdır. Əsas uçot siyasətlərinə edilmiş dəyişikliklər Qeyd 5-də təsvir edilmişdir.

3. Əməliyyat və təqdimat valyutası

Azərbaycan Respublikasının milli valyutası Azərbaycan Manatıdır ("AZN") və AZN Şirkətin əməliyyat valyutası və hazırkı maliyyə hesabatlarının məqsədləri üçün təqdimat valyutasıdır. Əks müddəa qeyd olunmadıqda, AZN-lə təqdim olunmuş bütün maliyyə məlumatları ən yaxın minliyə yuvarlaqlaşdırılmışdır.

4. Ehtimal və mühakimələrin tətbiqi

Maliyyə hesabatlarının MHBS-nə uyğun olaraq hazırlanması rəhbərlikdən mühasibatlıq siyasətlərinin tətbiq edilməsini və aktiv, öhdəlik, gəlir və xərclərin göstərilən məbləğlərinə təsir göstərən mülahizə, ehtimal və fərziyyələrdən istifadə etməyi tələb edir. Faktiki nəticələr həmin təxminlərdən fərqlənə bilər.

Ehtimallar və təməl fərziyyələr mütəmadi qaydada nəzərdən keçirilir. Uçot hesablamalarında dəyişikliklər həmin dəyişikliklər edildiyi dövrdə və təsir göstərdikləri hər hansı gələcək dövrlərdə əks olunur.

Uçot siyasətlərin tətbiq edilməsində maliyyə hesabatlarında əks olunmuş məbləğlərə ən əhəmiyyətli dərəcədə təsiri olan vacib mühakimələr haqqında məlumat aşağıdakı qeydlərdə əks olunur:

- Qeyd 6 (d) – mənfəətin tanınması: əvəzsiz əldə olunmuş aktivlərdən gələn gəlirlər müəyyən müddət ərzində, yoxsa həmin anda tanınır;
- Qeyd 13 və 28(g)(iii) - əmlak, qurğu və avadanlıqların faydalı istifadə müddəti;
- Qeyd 15 – ticari debitor borclar üzrə ehtiyatlar;

Növbəti maliyyə ilində əhəmiyyətli düzəliş riski olan ehtimal və fərziyyələr üzrə qeyri-müəyyənliklər haqqında məlumat aşağıdakı qeydlərdə əks olunur:

- Qeyd 12(d) – təxirə salınmış vergi aktivlərinin tanınması: növbəti ilə köçürülən vergi zərərlərinin tətbiq edilə biləcəyi vergi tutulan gələcək mənfəətin olması;
- Qeyd 24(b)(ii) – ticari debitor borcları üçün GKZ üzrə ehtiyatın ölçülməsi: hesablanmış orta zərər dərəcəsinin müəyyən edilməsində əsas fərziyyələr.

4. Ehtimal və mühakimələrin tətbiqi, davamı

Ədalətli dəyərlərin ölçülməsi

Şirkətin bir sıra uçot siyasətləri və açıqlamaları maliyyə və qeyri-maliyyə aktivləri və öhdəlikləri üçün ədalətli dəyərin ölçülməsini tələb edir.

Aktiv və ya öhdəliyin ədalətli dəyərini müəyyənləşdirərkən, Şirkət mümkün qədər müşahidə olunan bazar məlumatlarından istifadə edir. Ədalətli dəyərlər, qiymətləndirmə üsullarında istifadə olunan məlumatlar əsasında ədalətli dəyər iyerarxiyasının aşağıdakı səviyyələri üzrə təsnif edilir.

- *Səviyyə 1*: eyni aktiv və ya öhdəliklər üçün fəal bazarlarda müəyyən olunmuş qiymətlər (tənzimlənməmiş).
- *Səviyyə 2*: Səviyyə 1-ə daxil edilən kvota qiymətləri istisna olmaqla, birbaşa (məs: qiymətlər kimi) və ya dolayı yolla (məs: qiymətlərdən törəyən) aktiv və ya öhdəlik üçün müşahidə oluna bilən məlumatlar.
- *Səviyyə 3*: aktiv və ya öhdəlik üçün müşahidə oluna bilən bazar məlumatlarına əsaslanmayan məlumatlar (müşahidə oluna bilməyən məlumatlar).

Aktiv və ya öhdəliyin ədalətli dəyərini ölçmək üçün istifadə olunan məlumatlar ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələrinə aid olduqda, ədalətli dəyər, bütün ölçmə üzrə əhəmiyyətli olan ən aşağı səviyyə məlumatı ilə eyni səviyyədə kateqoriyalaşdırılır.

Şirkət dəyişikliyin baş verdiyi hesabat dövrünün sonunda ədalətli dəyər iyerarxiyasının müxtəlif səviyyələri arasında transferləri tanıyır.

Ədalətli dəyərin ölçülməsində irəli sürülmüş ehtimallar barədə ətraflı məlumat aşağıdakı qeydlərdə təqdim olunur:

- Qeyd 23 – ümumi nəzarətdə olan əməliyyat.
- Qeyd 21 – maliyyə alətləri.

5. Əsas uçot siyasətlərində dəyişikliklər

1 yanvar 2018-ci il tarixində şirkət ilk dəfə MHBS 15 (bax (A)) və MHBS 9 (bax (B)) tətbiq etmişdir. 1 yanvar 2018-ci il tarixindən bir sıra digər yeni standartlar da qüvvəyə minmişdir, lakin onlar Şirkətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərməmişdir.

Şirkətin bu standartları tərtib etmək üçün seçdiyi keçid üsullarına əsasən, ticari debitor borclarının dəyərsizləşməsi üzrə zərərin ayrıca təqdim olunmasından başqa (bax: (B)) yeni standartların tələblərini əks etdirmək üçün maliyyə standartlarında müqayisəli məlumat təkrar təqdim edilməmişdir.

Bu standartların ilk dəfə tətbiq edilməsinin təsiri əsasən aşağıdakı bəndlərdə özünü göstərmişdir:

- Qoşulma haqqı üzrə gəlirin müəyyən müddət ərzində tanınması (bax: A(a));
- Maliyyə aktivlərinin dəyərsizləşməsi üzrə zərərlərdə artımın tanınması (bax: B(ii)).

5. Əsas uçot siyasətlərində dəyişikliklər, davamı

A. MHBS 15 *Müştərilərlə Müqavilələr üzrə Gəlir*

MHBS 15 gəlirin tanınıb tanınmaması, nə qədər və nə vaxt tanınmasına dair kompleks əsası müəyyən edir. Bu BMUS 18 *Gəlir* standartını və əlaqədar şərhləri əvəz edir. MHBS 15-ə əsasən gəlir mal və ya xidmət üzərində nəzarət müştəriyə keçdikdə tanınır. Nəzarətin ötürülməsi anını – zaman anında və ya müəyyən müddət ərzində - müəyyən etmək mühakimə tələb edir.

Şirkət MHBS 15-i retrospektiv olaraq qəbul etmək barədə ilkin planını dəyişmiş və standartın ilkin tətbiqi üzrə təsirlərin ilkin tətbiq tarixində (1 yanvar 2018) baş verməsi şərtilə məcmu təsir üsulunu tətbiq etmişdir (praktiki güzəştlər olmadan). Müvafiq olaraq 2017-ci il üçün təqdim olunan məlumat təkrar təqdim edilməmişdir, yəni əvvəl BMUS 18-ə və əlaqədar şərhlərə əsasən hesabat verildiyi kimi göstərilmişdir. Əlavə olaraq MHBS 15-ə əsasən açıqlama tələbləri müqayisəli məlumata ümumi olaraq tətbiq edilməmişdir.

1 yanvar 2018-ci il tarixində MHBS 15-ə keçidin vergilər çıxılmaqla bölüşdürülməmiş mənfəətə heç bir təsiri olmamışdır.

MHBS 15-in tətbiqinin Şirkətin 31 dekabr 2018-ci il tarixinə olan maliyyə vəziyyəti haqqında hesabatına, həmin tarixdə tamamlanmış il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatına və 31 dekabr 2018-ci il tarixində tamamlanan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatına əhəmiyyətli təsiri olmamışdır.

(a) Elektrik şəbəkəsinə qoşulma haqları:

BMUS 18-ə əsasən elektrik şəbəkəsinə qoşulma üzrə gəlir müştərilər Şirkətin elektrik paylama şəbəkəsinə qoşularkən, yəni müştərinin mal/xidmətləri və ötürülən sahibkarlıqla bağlı riskləri və mülkiyyət hüququnu qəbul etdiyi anda tanınırdı. Gəlir həmin anda gəlir və xərclərin etibarlı qiymətləndirilməsi, ödənişin edilməsi ehtimalının olması və malla bağlı rəhbərliyin davamlı əlaqəsinin olmaması şərtilə tanınırdı. BMHS 15-ə əsasən quraşdırma/qoşulma müqaviləsi enerji təchizatı müqaviləsi ilə müşayiət edilməlidir. Odur ki, elektrik xətlərinə qoşulma haqqı müəyyən müddət ərzində, yəni elektrik təchizatı müddəti boyu, qoşulma üçün istifadə olunan elektik avadanlıqlarının ötürülməsinə görə gəlir isə konkret zaman anında tanınır.

Beləliklə, elektrik şəbəkəsinə qoşulmaq üzrə gələn gəlirlər BMUS 18 ilə müqayisədə BMHS 15 əsasında daha gec tanınır. Bu dəyişikliklərin təsiri müqavilənin qanuni tətbiq olunma müddətinin qısa olmasına görə əhəmiyyətli deyil.

MHBS 15 Şirkətin sair gəlir axınları baxımından uçot siyasətlərinə əhəmiyyətli təsir göstərməmişdir (bax: Qeyd 6).

Şirkətin gəlir tanınmasına dair uçot siyasətləri haqqında əlavə məlumat üçün Qeyd 6(d)-yə baxın.

5. Əsas uçot siyasətlərində dəyişikliklər, davamı

B. MHBS 9 *Maliyyə alətləri*

MHBS 9-da maliyyə aktivlərinin, maliyyə öhdəliklərinin və qeyri-maliyyə maddələrinin alınması və ya satışına dair bəzi müqavilələrin tanınması və ölçülməsinə dair tələblər irəli sürülür. Bu standart BMUS 39 *Maliyyə alətləri: Tanıma və Qiymətləndirmə* standartını əvəz edir.

MHBS 9-un tətbiqi nəticəsində Şirkət BMUS 1 *Maliyyə hesabatlarının təqdimatı standartına* maliyyə aktivlərinin dəyərdən düşməsini mənfəət və ya zərər və sair məcmu gəlir hesabatında ayrıca bənd sətri kimi tanınmasını tələb edən düzəlişləri də qəbul etmişdir. Əvvəllər Şirkət debitor borcları üzrə dəyərsizləşmə zərərini sair xərclərə aid edirdi. Daha sonra Şirkət BMUS 39-a əsasən tanınmış 20,860 min AZN məbləğində dəyərsizləşmə üzrə zərərin bərpasını 31 dekabr 2017-ci il tarixində tamamlanan mənfəət və ya zərər və sair məcmu gəlir hesabatında "sair gəlirlərdən" çıxarıb "debitor borclarının dəyərsizləşməsi üzrə zərər" bəndində təsnif etdi.

Əlavə olaraq Şirkət MHBS 7 *Maliyyə alətləri: Açıqlamalar* standartına 2018-ci ilə dair açıqlamalara tətbiq edilən, lakin müqayisəli məlumata ümumən tətbiq edilməmiş düzəlişləri qəbul etdi.

MHBS 9-a keçidin bölüşdrülüməmiş mənfəətin açılış balansına təsiri aşağıdakı cədvəldə öz əksini tapmışdır (keçid üsulunun təsviri üçün (iii)-yə baxın).

'000 AZN	**Qeyd**	**MHBS 9-un qəbul edilməsinin açılış balansına təsiri**
Yığılmış zərər		
MHBS 9-yə əsasın gözlənilən kredit zərərinin tanınması – 1 yanvar 2018-ci ildə təsiri	*(ii)*	12,353

(i) Maliyyə alətlərinin və maliyyə öhdəliklərinin təsnifatı və ölçülməsi

MHBS 9-da maliyyə aktivlərinin üç əsas təsnifat kateqoriyası mövcuddur: amortizasiya edilmiş dəyərdə ölçülən, sair məcmu gəlirdə ədalətli dəyərdə ölçülən (SMGƏD) və mənfəət və ya zərərdə ədalətli dəyərdə ölçülən (MZƏD). MHBS 9-a əsasən maliyyə aktivlərinin təsnifatı əsasən maliyyə aktivlərinin idarə edildiyi biznes modelinə və onların müqavilə üzrə pul vəsaitlərinin hərəkəti xüsusiyyətlərinə əsaslanır. MHBS 9 BMUS 39-un ödəniş müddətinədək saxlanılan, kredit və debitor borcları və satıla bilən aktivlər kateqoriyalarını aradan qaldırır.

MHBS 9 maliyyə öhdəliklərinin təsnifatı və ölçülməsinə dair BMUS 39-un mövcud tələblərini əsas etibarilə saxlayır.

MHBS 9-un tətbiqi Şirkətin maliyyə öhdəlikləri ilə bağlı uçot siyasətlərinə əhəmiyyətli təsir göstərməmişdir.

Şirkətin maliyyə alətlərini MHBS 9-a əsasən necə təsnif etdiyi və ölçdüyü və əlaqədar gəlir və zərər hesabları Qeyd 28(i)(ii)-də izah edilmişdir.

Aşağıdakı cədvəl və onu müşayiət edən qeydlər 1 yanvar 2018-ci il tarixinə Şirkətin hər maliyyə aktivi və maliyyə öhdəliyinin sinifləri üzrə BMUS 39-a əsasən ilkin ölçü kateqoriyalarını və MHBS 9-a əsasən yeni ölçü kateqoriyalarını izah edir:

MHBS 9-un tətbiqinin 1 yanvar 2018-ci il tarixində maliyyə aktivlərinin balans dəyərlərinə təsiri yalnız dəyərsizləşmə üzrə yeni tələblərə aiddir.

5. Əsas uçot siyasətlərində dəyişikliklər, davamı

Aşağıdakı cədvəldə 1 yanvar 2018-ci il tarixində MHBS 9-a keçid zamanı maliyyə aktivlərinin BMUS 39-a əsaslanan balans dəyərləri ilə MHBS 9-a əsaslanan balans dəyərləri üzləşdirilmişdir.

’000 AZN	Qeyd	BMUS 39-a əsasən ilkin təsnifat	MHBS 9-a əsasən yeni təsnifat	BMUS 39-a əsasən ilkin balans dəyəri	MHBS 9-a əsasən yeni balans dəyəri
Maliyyə aktivləri					
Ticari və sair debitor borcları	(d)	Kreditlər və debitor borcları	Amortizasiya edilmiş dəyər	82,579	70,226
Pul vəsaitləri və onların ekvivalentləri		Kreditlər və debitor borcları	Amortizasiya edilmiş dəyər	46,928	46,928
Cəmi maliyyə aktivləri				**129,507**	**117,154**

’000 AZN	BMUS 39-a əsasən ilkin təsnifat	MHBS 9-a əsasən yeni təsnifat	BMUS 39-a əsasən ilkin balans dəyəri	MHBS 9-a əsasən yeni balans dəyəri
Maliyyə öhdəlikləri				
Təminatlı bank kreditləri	Sair maliyyə öhdəlikləri	Sair maliyyə öhdəlikləri	254,928	254,928
Təminatsız bank öhdəlikləri	Sair maliyyə öhdəlikləri	Sair maliyyə öhdəlikləri	9,531	9,531
Dövlətdən alınan kreditlər	Sair maliyyə öhdəlikləri	Sair maliyyə öhdəlikləri	49,822	49,822
Ticari kreditor borcları	Sair maliyyə öhdəlikləri	Sair maliyyə öhdəlikləri	125,024	125,024
Cəmi maliyyə öhdəlikləri			**439,305**	**439,305**

BMUS 39-a əsasən kredit və debitor borcları kimi təsnif edilən ticari və sair debitor borcları indi amortizasiya edilmiş dəyərdə təsnif edilir.

5. Əsas uçot siyasətlərində dəyişikliklər, davamı

1 yanvar 2018-ci il tarixində MHBS 9-a keçidlə əlaqdər maliyyə aktivlərinin BMUS 39-a əsaslanan balans dəyərləri ilə MHBS 9-a əsaslanan balans dəyərləri arasındakı müqayisə aşağıdakı cədvəldə göstərilir:

’000 AZN	31 dekabr 2017-ci il tarixinə BMUS 39-a əsasən balans dəyəri	Yeni qiymətləndirmə	1 yanvar 2018-ci il tarixinə MHBS 9-a əsasən balans dəyəri
Maliyyə aktivləri			
Amortizasiya edilmiş dəyər			
Pul vəsaitləri və onların ekvivalentləri:			
Növbəti ilə keçirilmiş: *Kreditlər və debitor borcları*	46,928	-	-
Yeni qiymətləndirmə	-	-	-
Növbəti ilə keçirilmiş: *Amortizasiya edilmiş dəyər*	-	-	46,928
Ticari və sair debitor borcları:	-	-	
Növbəti ilə keçirilmiş: *Kreditlər və debitor borcları**	82,579	-	-
Yeni qiymətləndirmə	-	(12,353)	-
Növbəti ilə keçirilmiş: *Amortizasiya edilmiş dəyər*	-	-	70,226
Cəmi amortizasiya edilmiş dəyər	**129,507**	**(12,353)**	**117,154**

(ii) Maliyyə aktivlərinin dəyərdən düşməsi

MHBS 9 BMUS 39-da olan “çəkilən zərər” modelini “gözlənilən kredit zərəri” (GKZ) modeli ilə əvəz edir. Yeni dəyərsizləşmə modeli, kapital alətlərinə investisiyalar xaric, amortizasiya dəyərində ölçülən maliyyə aktivlərinə, müqavilə aktivlərinə və SMGƏD-də ölçülən borc investisiyalarına tətbiq edilir. MHBS 9-a əsasən kredit üzrə zərərlər BMUS 39-da olduğundan daha tez tanınır (bax: Qeyd 28(k)(i)).

MHBS 9-un dəyərsizləşmə modeli çərçivəsində aktivlər üçün dəyərsizləşmə zərərlərinin ümumən artması və daha qeyri-sabit olması gözlənilir. Şirkət 1 yanvar 2018-ci il tarixində MHBS 9-un dəyərsizləşmə tələblərinin tətbiqinin dəyərsizləşmə üzrə ehtiyatda artıma aşağıdakı şəkildə səbəb olacağını müəyyən etmişdir.

’000 AZN	
BMUS 39-a əsasən 31 dekabr 2017-ci il tarixində zərər üzrə ehtiyat	**43,416**
31 dekabr 2017-ci il tarixinə ticari və sair debitor borclarında 1 yanvar 2018-ci il tarixində tanınmış/(bərpa olunmuş) əlavə dəyərsizləşmə	12,353
MHBS 9-a əsasən 1 yanvar 2018-ci il tarixində zərər üzrə ehtiyat	**55,769**

Şirkətin dəyərsizləşmə üzrə ehtiyat məbləğini necə ölçdüyü haqqında əlavə məlumat Qeyd 24(b)(ii)-də təsvir edilmişdir.

5. Əsas uçot siyasətlərində dəyişikliklər, davamı

(iii) Keçid

MHBS 9-un tətbiqi nəticəsində uçot siyasətlərində dəyişikliklər, aşağıda təsvir edilənlər istisna olmaqla, retrospektiv qaydada tətbiq edilmişdir:

- Şirkət təsnifat və qiymətləndirmə (dəyərsizləşmə daxil olmaqla) baxımından əvvəlki dövrlər üzrə müqayisəli məlumatı təkrar təqdim etməmək hüququndan istifadə etmişdir
- İlkin tətbiq tarixində mövcud fakt və şəraitə əsasən maliyyə aktivinin saxlandığı biznes modeli müəyyənləşdirilmişdir.

6. Gəlir

MHBS 15-in ilkin tətbiqinin Şirkətin müştərilərlə müqavilələr üzrə gəlirinə təsiri Qeyd 5-də təsvir edilmişdir. MHBS 15-in tətbiqinə dair seçilmiş keçid üsuluna əsasən yeni tələbləri əks etdirmək üçün müqayisəli məlumat təkrar təqdim edilməmişdir.

(a) Gəlir mənbələri

Şirkətin əsas gəlir mənbəyi satılan elektrik enerjisi və quraşdırma xidmətləridir (bax: Qeyd 6). Digər gəlir mənbələrinə digər tərəflərdən əvəzsiz əldə olunan aktivlər daxildir.

'000 AZN	**2018**	**2017**
Müştərilərlə müqavilələr üzrə gəlir*	1,204,115	1,175,759
Sair gəlir	906	1,071
Cəmi gəlir	**1,205,021**	**1,176,830**

* Bu məbləğin 4,377 min AZN-ni əvəzsiz əldə olunan aktivlərdən gələn gəlir təşkil edir.

Elektrik enerjisi satışından gələn gəlirlər elektrik ötürücü xətlərində müvafiq olaraq 88,476 min AZN və 28,705 min AZN məbləğində texniki və kommersiya zərərlərini özünə daxil etmir (2017: müvafiq olaraq 84,820 min AZN və 55,841 min AZN). Bu zərərlər müvafiq dövrlər üzrə qüvvədə olan elektrik enerjisinin satınalma tariflərinə əsasən müəyyən edilmişdir.

6. Gəlir, davamı

(b) Müştərilərlə müqavilələr üzrə gəlirlərin açılışı

Aşağıdakı cədvəldə müştərilərlə müqavilələr üzrə gəlirlərin əsas məhsullar və xidmət xətləri və gəlirin tanınması zamanına uyğun açılışı verilmişdir.

	2018	2017
31 dekabr tarixində tamamlanan il üzrə	**1,204,115**	**1,175,759**
'000 AZN		
Əsas məhsullar/xidmət xətləri		
Satılmış elektrik enerjisi	1,181,464	1,136,284
Elektrik xətlərinə qoşulma haqları	18,274	13,159
Digərlərindən əvəzsiz əldə olunan aktivlər	4,377	26,316
Gəlirin tanınma zamanı		
Müəyyən müddət ərzində ötürülən məhsullar və xidmətlər	1,192,436	1,136,284
Konkret zaman anında ötürülən məhsullar və xidmətlər	11,679	39,475

(c) Müqavilə üzrə qalıqlar

Aşağıdakı cədvəldə müştərilərlə müqavilələr üzrə debitor borcları və müqavilə üzrə öhdəliklər haqqında məlumat təqdim edilmişdir.

'000 AZN	Qeyd	31 dekabr 2018	1 yanvar 2018
"Ticari və sair debitor borcları"na daxil olan debitor borcları	15	133,862	122,717
Müqavilə üzrə öhdəliklər	22	14,742	13,801

Müqavilə üzrə öhdəliklər başlıca olaraq gəliri müəyyən müddət ərzində tanınan elektrik enerjisi üçün müştərilərdən alınan avans məbləğlərindən ibarətdir.

Dövrün əvvəlində müqavilə üzrə öhdəlilərdə tanınmış 13,801 min AZN 31 dekabr 2018-ci il tarixinə bitər dövrdə gəlir kimi tanınmışdır.

MHBS 15 çərçivəsində 31 dekabr 2018-ci il tarixində ilkin gözlənilən müddəti bir il və daha az olan qalıq icra öhdəlikləri üzrə heç bir məlumat təqdim edilməmişdir.

(d) İcra öhdəlikləri və gəlir tanıma siyasəti

Gəlir müştəri ilə müqavilədə müəyyən edilən qiymətə əsasən ölçülür. Şirkət gəliri mal və ya xidmət üzrə nəzarəti müştəriyə ötürdükdə tanıyır.

Aşağıdakı cədvəldə müştərilərlə müqavilələr üzrə icra öhdəliklərinin yerinə yetirilmə xüsusiyyətləri və zamanlaması, o cümlədən əhəmiyyətli ödəniş şərtləri və əlaqəli gəlir tanıma siyasəti haqqında məlumat təqdim olunmuşdur.

6. Gəlir, davamı

Məhsul/xidmət növü	İcra öhdəliklərinin yerinə yetirilmə xüsusiyyətləri və zamanlaması, o cümlədən əhəmiyyətli ödəniş şərtləri	MHBS 15-ə əsasən gəlirin tanınması (1 yanvar 2018-ci il tarixindən tətbiq olunur)	BMUS 18-ə əsasən gəlirin tanınması (1 yanvar 2018-ci il tarixinədək tətbiq olunub)
Satılmış elektrik enerjisi	Elektrik enerjisi müştərilərin obyektinə çatdırıldıqda və qəbul edildikdə elektrik enerjisinə nəzarət onlara keçir. Hesab-fakturalar müqavilə şərtlərinə uyğun olaraq təqdim edilir və adətən 30 gün ərzində ödənilməlidir. Satılmış elektrik enerjisinə görə heç bir endirim təqdim olunmur.	Gəlir Şirkətə ödənilməli olan məbləğdə tanınır. Elektrik enerjisi satışına görə gəlir sayğac göstəricisinə görə istehlak olunmuş elektrik əsasında tanınır və aylıq olaraq hesablanır. Qaçqın və məcburi köçkünlərə satılan elektrik enerjisi üzrə gəlir qeydiyyatda olan qaçqın və məcburi köçkünlərin sayına və onların hər biri üçün dövlətin müəyyən etdiyi standart limitə əsasən AR Qaçqın və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsindən daxil olan faktiki ödənişlər əsasında tanınır. Əməliyyat qiyməti dövr ərzində istehlak edilən elektrik enerjisi üçün müqavilə üzrə müəyyən edilən qiymətdir. Alınmış avanslar müqavilə öhdəliklərinə əlavə edilir.	Gəlir, sahibkarlıqla bağlı əhəmiyyətli risklərin və mülkiyyət hüququnun müştəriyə ötürüldüyünə, ödəniş ehtimalının olmasına, mallarla bağlı rəhbərliyin davamlı əlaqəsinin olmayacağına dair adətən icra edilmiş satış müqaviləsi qismində sübut olduqda və gəlir məbləği etibarlı şəkildə ölçülə bildikdə tanınırdı. Gəlir, vergilər, endirimlər, topdan endirim çıxılmaqla, daxil olan və ya daxil olmalı məbləğin ədalətli dəyərində ölçülürdü. Elektrik enerjisi satışları üçün, elektrik enerjisi satışından daxil olan gəlir ƏDV çıxılmaqla daxil olan və ya daxil olmalı olan məbləğin ədalətli dəyərində ölçülürdü. Gəlir sayğac göstəricilərinə əsasən aylıq olaraq tanınırdı.
Elektrik şəbəkəsinə qoşulma	Şirkət müştəriləri elektrik şəbəkəsinə qoşmaq üçün quraşdırma işləri həyata keçirir. Ödəniş quraşdırmadan əvvəl edilir, quraşdırmadan/qoşulmadan sonra tərəflər təhvil-təslim aktı imzalayır və bundan sonra müştəri elektrik şəbəkəsinə qoşulur. Təhvil-təslim aktı imzalandıqdan sonra müştəri Şirkətlə elektrik enerjisi təchizatına dair müqavilə bağlamalıdır. Bəzi hallarda müştəri şirkətlə ayrıca quraşdırma/qoşulma müqaviləsi imzalamalı olsa	Qoşulma haqqı elektrik enerjisinin təchizat müddəti boyu tanınır, elektrik avadanlıqlarının ötürülməsində gəlir isə mal çatdırıldıqdan və müştəri tərəfindən onun obyektində təhvil alındıqdan sonra tanınır. Müqavilə üzrə müştəri məhsulu geri qaytara bilərsə, belə müqavilə üzrə gəlir tanınan toplam gəlir məbləğində əhəmiyyətli azalmanın baş verməyəcəyi ehtimalının yüksək olması şərtilə tanınır.	Gəlir, mal və xidmətlər müştərinin obyektinə çatdırıldıqda, yəni müştəri mal və xidmətləri təhvil aldıqda və sahibkarlıqla əlaqəli risklər və mülkiyyət hüquqlarının ötürüldüyü vaxtda tanınırdı. Gəlir müştəri Şirkətin paylama şəbəkəsinə qoşulduqda tanınırdı. Bu zaman gəlir və xərclər etibarlı şəkildə hesablana bilir, ödənişin edilməsi ehtimalı olur və rəhbərliyin malla davamlı əlaqəsi qalmırdı.

Məhsul/xidmət növü	İcra öhdəliklərinin yerinə yetirilmə xüsusiyyətləri və zamanlaması, o cümlədən əhəmiyyətli ödəniş şərtləri	MHBS 15-ə əsasən gəlirin tanınması (1 yanvar 2018-ci il tarixindən tətbiq olunur)	BMUS 18-ə əsasən gəlirin tanınması (1 yanvar 2018-ci il tarixinədək tətbiq olunub)
	belə bu enerji təchizatına dair müqavilə ilə müşayiət edilməlidir. Çünki Şirkət və müştəri arasında bağlanan qoşulma müqaviləsi və davamlı xidmət müqaviləsi eyni tərəflər arasında və təxminən eyni və yaxın zamanda bağlanılır və bir icra öhdəliyini təşkil edir. Hər quraşdırma işi müştəri tam ödəniş etdikdən sonra başlayır və müddəti işin mürəkkəbliyindən asılıdır. Buna baxmayaraq adətən iş bir aydan çox çəkmir.		
Əvəzsiz əldə olunan aktivlər	Elektrik enerjisi alan müştərilər əsasən ötürücü qurğulardan ibarət olan aktivləri əvəzsiz olaraq Şirkətin mülkiyyətinə verməklə bağlı Şirkətlə müqavilə bağlaya bilər. Şirkət ötürüldüyü andan aktivlərə nəzarəti əldə etmiş olur. Bu aktivlər mahiyyət etibarilə Şirkətin müştəriləri elektrik şəbəkəsinə qoşması üçün nəzərdə tutulan məbləğin ayrılmaz hissəsidir. Əvəzsiz əldə olunan aktivlər ötürüldüyü günə ədalətli dəyəri ilə qiymətləndirilir.	Gəlir ötürülmə gününə olan ədalətli dəyərdə tanınır. Həmin günə qədər aktivlərin ötürüləcəyinə tam əminlik olmur.	BMHŞK 18-ə əsasən müştərilər davamlı elektrik enerjisi təchizatına görə ödəniş etməyənlərlə eyni qiyməti ödədiyi üçün aktivlərin ötürülməsi ayrıca müəyyən edilən xidmət sayılır və Şirkət aktivlərin ötürülməsini ayrıca müəyyən oluna biləcək xidmət kimi tanıyırdı. Şirkət, tərəflər arasında imzalanmış təhvil-təslim aktına əsasən ötürülən aktivlər üzrə sahibkarlıq Şirkətə keçdikdə, ötürmə tarixində aktivlərin ədalətli dəyərini gəlir kimi tanıyırdı.

7. Satış xərcləri

'000 AZN	**2018**	**2017**
Alınan elektrik enerjisi	903,161	896,697
Amortizasiya	93,326	77,236
Əmək haqqı və əlaqəli sosial xərclər	50,477	50,514
Təmir xərcləri	39,921	41,137
Sair	10,422	10,137
	1,097,307	**1,075,721**

8. Paylama xərcləri

'000 AZN	**2018**	**2017**
Əmək haqqı və maaşlar	32,228	31,554
Pul vəsaitlərinin toplanması haqları	7,666	6,601
Amortizasiya	1,092	999
Ofis təchizatı	1,162	791
İcarə	335	351
Rabitə	168	187
Peşəkar xidmətlər	42	39
Digər	599	305
	43,292	**40,827**

9. İnzibati xərclər

’000 AZN	2018	2017
Əmək haqqı və maaşlar	21,620	17,507
Mənfəət vergisindən başqa sair vergilər	8,058	5,861
Vergi cərimələri	5,500	4,792
Köhnəlmə və amortizasiya	1,997	1,782
Təhlükəsizlik	1,499	1,556
Ofis təchizatı	1,531	1,254
Kommunal xidmətlər	1,949	1,215
Bank haqları	1,278	1,117
Rabitə	931	804
Ezamiyyət	831	433
Peşəkar xidmətlər	753	348
Sığorta	429	202
Nəqliyyat	209	112
Yanacaq	91	298
İcarə	15	36
Sair	4,385	2,649
	51,076	**39,966**

10. Sair gəlirlər və xərclər

(d) Fərdi deyil, kollektiv əhəmiyyətli əməliyyatlar

Şirkət 31 dekabr 2018-ci il tarixinə Azərbaycanın regionlarında hökumətlə bağlı şirkətlərə elektrik enerjisi satışından gəlirləri və onların ödənilməmiş xalis debitor borclarını açıqlamır, çünki bu əməliyyatlar fərdi əhəmiyyətə malik deyil.

27. Qiymətləndirmənin əsasları

Maliyyə hesabatları ilkin dəyər prinsipi əsasında hazırlanmışdır. Qeyd 24-də açıqlandığı kimi, 2018 və 2017-ci illərdə "AzərEnerji" ASC-dən ötürülmüş aktiv və öhdəliklər isə istisna təşkil edərək əməliyyat tarixinə ədalətli dəyərində tanınmışdır.

28. Əsas uçot siyasətləri

Aşağıdakı uçot siyasətləri hazırkı maliyyə hesabatlarında əks olunmuş bütün dövrlərə ardıcıl qaydada Şirkət tərəfindən tətbiq olunur.

Əsas uçot siyasətlərinin qeyd olunduğu səhifələrin nömrələri aşağıda verilmişdir :

(a)	**Gəlir**	**48**
(b)	**Maliyyə gəlirləri və maliyyə xərcləri**	**49**
(c)	**Xarici valyuta**	**49**
(d)	**İşçilərin mükafatlandırılması**	**49**
(e)	**Mənfəət vergisi**	**50**
(f)	**Mal-material ehtiyatlar**	**51**
(g)	**Əmlak, qurğu və avadanlıq**	**51**
(h)	**Qeyri-maddi aktivlər**	**52**
(i)	**Maliyyə alətləri**	**52**
(j)	**Nizamnamə kapitalı**	**56**
(k)	**Dəyərsizləşmə**	**56**
(l)	**Ehtiyatlar**	**59**
(m)	**İcarələr**	**59**

(a) Gəlir

Şirkət elektrik enerjisi satışından, şəbəkə xətlərinə qoşulmadan və pulsuz əldə olunan aktivlərdən gəlir əldə edir.

Şirkət müştəri ilə müqavilələri iki tərəfə hüquq və öhdəliklər verən, müştərinin ödəniş müqabilində müəssisənin adi fəaliyyətinin məhsulu olan mal və xidmətləri əldə etmək üçün müəssisə ilə müqavilə bağlamış tərəf olduğu razılaşma kimi müəyyən edir. Müqavilə üzrə hüquq və öhdəliklər qanunla tənzimlənir. Şirkət müqavilələrinin əksəriyyəti yazılı şəkildə bağlanılır.

Gəlir müştəri ilə bağlanmış müqavilədə müəyyən edilən məbləğə əsasən ölçülür və üçüncü tərəflərin topladığı məbləğləri istisna edir. Şirkət gəliri yalnız məhsul və ya xidmət üzrə nəzarəti müştəriyə ötürdükdən sonra tanıyır.

Ödənilməli məbləğlər və əlaqəli xərclərin ödəniləcəyinə dair əhəmiyyətli qeyri-müəyyənlik olduğu təqdirdə gəlir tanınmır.

Şirkət 1 yanvar 2018-ci il tarixindən etibarən ilk dəfə MHBS 15-i tətbiq etmişdir. Müştərilərlə müqavilələrlə bağlı şirkətin uçot siyasəti Qeyd 6(d)-də təqdim edilmişdir. MHBS 15-in bu ilkin tətbiqinin təsirləri Qeyd 5-də təsvir edilmişdir.

28. Əsas uçot siyasətləri, davamı

(b) Maliyyə gəlirləri və maliyyə xərcləri

Şirkətin maliyyə gəlirləri və xərclərinə daxildir:

- Faiz xərcləri;
- Maliyyə aktivləri və öhdəlikləri üzrə xarici valyuta mübadiləsindən gəlir və ya zərər.

Faiz xərcləri effektiv faiz metodu əsasında tanınır.

"Effektiv faiz dərəcəsi" maliyyə alətinin gözlənilən istifadə müddəti boyu proqnoz edilən gələcək nağd ödənişləri və ya daxilolmaları:

– maliyyə alətinin ümumi balans dəyərinədək; və ya
– maliyyə öhdəliyinin amortizasiya edilmiş dəyərinədək diskontlaşdıran dərəcədir.

Faiz gəliri və ya xərcini hesablayarkən effektiv faiz dərəcəsi aktivin (aktiv kredit üzrə dəyərsizləşmiş olmadıqda) ümumi balans dəyərinə və ya öhdəliyin amortizasiya edilmiş dəyərinə tətbiq edilir. Lakin aktiv ilkin tanınmadan sonra kredit üzrə dəyərsizləşdikdə faiz gəliri effektiv faiz dərəcəsini aktivin amortizasiya edilmiş dəyərinə tətbiq etməklə hesablanır. Aktivin kredit üzrə dəyərsizləşməsi yox olduqda faiz gəliri yenə ümumi balans dəyəri əsasında hesablanır.

(c) Xarici valyuta

(i) Xarici valyuta əməliyyatları

Xarici valyutalardakı əməliyyatlar həyata keçirildiyi tarixlərdə olan məzənnələrlə Şirkətin müvafiq əməliyyat valyutalarına çevrilir.

Hesabat tarixinə xarici valyutalarda əks olunmuş maliyyə aktivləri və öhdəlikləri həmin tarixdə olan məzənnə ilə əməliyyat valyutasına çevrilir. Maliyyə maddələri üzrə xarici valyuta gəliri və ya zərəri, dövr ərzində effektiv faiz və ödənişlər nəzərə alınmaqla, dövrün əvvəlində əməliyyat valyutasında amortizasiya olunmuş dəyər ilə hesabat dövrünün sonundakı məzənnə əsasında çevrilmiş xarici valyutada amortizasiya olunmuş dəyər arasında olan fərqdir.

İlkin əsasda qiymətləndirilən xarici valyutada olan qeyri-maliyyə maddələri konvertasiya tarixinə olan mübadilə məzənnəsi əsasında çevrilir.

Konvertasiya zamanı yaranan xarici valyuta fərqləri mənfəətə və ya zərərə aid edilir.

(d) İşçi heyəti üzrə xərclər

(i) İşçilərin qısamüddətli gəlirləri

Qısamüddətli işçi gəlirləri şirkət tərəfindən diskontlaşdırılmayan qaydada ölçülür və həmin xidmətlər göstərildiyi təqdirdə xərcə salınır. Əgər Şirkət işçinin göstərdiyi keçmiş xidmətlərinin müqabilində qısamüddətli nağd pul bonuslarını ödəməyə cari hüquqi və ya konstruktiv öhdəliyə malikdirsə, öhdəliklərin ödənilməsi gözlənilən qısamüddətli nağd pul bonusları adı altında qeydiyyata alınır. Həmin öhdəliklər etibarlı şəkildə qiymətləndirilməlidir.

28. Əsas uçot siyasətləri, davamı

(ii) Müəyyənləşdirilmiş yardım planları

Müəyyənləşdirilmiş yardım planı hüquqi şəxsin ayrıca şəxsə sabit yardımlar ödədiyi və əlavə məbləğləri ödəmək üçün hüquqi və konstruktiv öhdəliklərə malik olmayacağı təqaüd ödənişi planıdır. Müəyyənləşdirilmiş yardım təqaüd planlarına, o cümlədən Azərbaycan Dövlət Sosial Müdafiə Fonduna öhdəliklər xidmətlərin işçilər tərəfindən icra olunduğu dövrlərdə mənfəət və ya zərərdə işçi mükafatlandırılması xərci kimi tanınır.

(e) Mənfəət vergisi

Mənfəət vergisinə cari vergi və təxirə salınmış vergi daxildir. Cari və təxirə salınmış vergilər, birbaşa kapitalda tanınan maddələrə aid olduğu hallar istisna olmaqla, mənfəət və zərərdə tanınır.

(i) Cari vergi

Cari vergi hesabat tarixində müəyyənləşdirilmiş və ya mahiyyət etibarı ilə müəyyənləşdirilmiş vergi dərəcəsindən istifadə edərək və ötən illərə nəzərən vergi borclarına düzəlişlər edilərək il ərzində vergiyə cəlb olunan gəlir və ya zərər üzrə gözlənilən vergi borcları və ödənilməli olan vergilərdir. Dividendlərin elan olunmasından yaranan hər hansı vergi öhdəliyi də cari vergi borclarına daxildir.

(ii) Təxirə salınmış vergi

Təxirə salınmış vergi maliyyə hesabatlılığı məqsədləri üçün istifadə olunan aktivlərin və öhdəliklərin balans dəyərləri ilə vergiqoyma məqsədləri üçün istifadə olunan məbləğlər arasında olan müvəqqəti fərqlər üzrə tanınır.

Təxirə salınmış vergi aktivi yalnız o zaman uçota alınır ki, istifadə edilməmiş vergi itkilərinin, istifadə edilməmiş vergi güzəştlərinin, müvəqqəti fərqlərin əvəzini ödəyə biləcək vergilərə cəlb edilən gələcək gəlirlərin mövcud olacağı ehtimal olunsun. Gələcəkdə vergi tutula bilən mənfəət müvafiq vergi tutulan müvəqqəti fərqlərin bərpası əsasında müəyyən edilir. Vergi tutulan müvəqqəti fərqlərin məbləği təxirə salınmış vergi aktivini tam tanımaq üçün kifayət deyilsə, cari müvəqqəti fərqlər üzrə düzəliş edilmiş gələcəkdə vergi tutula bilən mənfəət nəzərə alınır. Təxirə salınmış vergi aktivləri hər hesabat tarixində nəzərdən keçirilir və gələcək vergi ehtiyatları yaranmadığı təqdirdə müəyyən miqdarda azaldılır; gələcəkdə vergi tutulan mənfəətlər artıqda, bu azaldılmalar geri qaytarılır.

Tanınmamış təxirə salınmış vergi aktivləri hər hesabat tarixində təkrar qiymətləndirilir və o zaman uçota alınır ki, onların əvəzini ödəyə biləcək vergilərə cəlb edilən gələcək gəlirlərin mövcud olacağı ehtimal olunsun.

Təxirə salınmış vergilər, hesabat tarixinə qüvvədə olan və ya hesabat dövrünün sonunda qüvvəyə minmiş qanunlara uyğun olaraq, müvəqqəti fərqlərə onlar ləğv ediləcəyi zaman tətbiq ediləcək gözlənilən vergi dərəcələri əsasında müəyyən olunur. Təxirə salınmış verginin ölçülməsi hesabat dövrünün sonunda aktiv və öhdəliklərin balans dəyərini bərpa etmək və ya müəyyənləşdirmək üçün şirkətin gözlədiyi qaydada vergi nəticələrini əks etdirir.

Cari və təxirə salınmış vergi öhdəliklərini müəyyən etmək üçün Şirkət qeyri-müəyyən vergi mövqeyinin təsirini, əlavə vergiləri, penyaları və ödənilməmiş vergi faizlərini nəzərdə tutmalıdır. Şirkət vergi qanunvericiliyinin təfsiri və əvvəlki təcrübəyə əsaslanaraq inanır ki, vergi öhdəlikləri üçün hesablaşmalar bütün açıq vergi illərinə görə adekvatdır.

28. Əsas uçot siyasətləri, davamı

Həmin qiymətləndirmə ehtimal və fərziyyələrə əsaslanaraq həyata keçirilir və uyğun olaraq gələcək haqqında ehtimallar olmasına səbəb olur. Şirkətin öz qərarlarını dəyişməsinə səbəb olan yeni bir məlumat yarana, bu da öz növbəsində vergi öhdəliklərinə təsir edə və həmçinin vergi xərci məbləğini dəyişdirə bilər.

(f) Mal-material ehtiyatlar

Ehtiyatlar maya dəyəri ilə xalis satış dəyərindən ən aşağı olanı ilə qeydə alınır. Ehtiyat xərcləri ilk daxil olanın ilk çıxması prinsipinə əsaslanır və ehtiyatların alınmasına çəkilmiş xərcləri və onları hazırkı yerə və vəziyyətə gətirmək üçün çəkilmiş xərcləri əhatə edir.

Xalis satış dəyəri adi biznes fəaliyyətində qiymətləndirilmiş satış qiymətindən tamamlanma xərcləri və satış xərcləri çıxılmaqla yaranan dəyərdir.

(g) Əmlak, qurğu və avadanlıq

(i) Tanıma və qiymətləndirmə

Torpaq istisna olmaqla, əmlak, qurğu və avadanlıqlar hər hansı yığılmış amortizasiya və dəyərsizləşmə üzrə zərərlər çıxılmaqla, ilkin dəyərdə uçota alınır.

İlkin dəyər birbaşa aktivin əldə olunması ilə əlaqədar çəkilən xərcləri özündə birləşdirir. Tikilmiş əsas vəsaitin ilkin dəyərinə ehtiyatlar və birbaşa işçi qüvvəsi xərcləri, əsas vəsaitin işlək vəziyyətə gətirib çıxarması üçün çəkilən xərcləri, həmin vəsaitlərin sökülməsi və aradan qaldırılması xərcləri, onların yerləşdiyi sahənin bərpası xərcləri daxildir. Əlaqədar avadanlığın funksionallığının tərkib hissəsi olan alınmış proqram təminatı həmin avadanlığın tərkibi kimi kapitallaşdırılır.

Əmlak, qurğu və avadanlıqları müxtəlif istifadə müddətləri olan komponentlərdən ibarət olduğu təqdirdə, onların uçotu ayrı-ayrı əsas vəsaitlərin (əsas hissələrin) növü kimi aparılır.

Əmlak, qurğu və avadanlıqların satışından yaranan mənfəət və ya zərər gəlirin məbləği ilə balans dəyəri arasındakı fərq kimi müəyyən edilir və mənfəət və ya zərərdə sair gəlirə/sair xərclərə daxil edilir.

(ii) Sonrakı xərclər

Sonrakı xərc yalnız o halda kapitallaşdırılır ki, bu xərc aid olduğu xüsusi aktivin gələcək mənfəətini artırsın. Əmlak, qurğu və avadanlığın gündəlik xidmət xərcləri çəkildikcə mənfəət və ya zərərdə tanınır.

(iii) Köhnəlmə

Köhnəlmə əmlak, qurğu və avadanlıq bəndi quraşdırıldığı və istifadə üçün yararlı olduğu tarixdən və yaxud, daxili qaydada tikilmiş aktivlər halında, aktiv tam tikilib istifadə üçün hazır olduğu tarixdən etibarən başlanır. Köhnəlmə aktivlərin dəyərindən onların qalıq dəyərini çıxmaqla hesablanır.

Köhnəlmə düz xətt metodu ilə hesablanıb, hər bir əsas vəsait üçün planlaşdırılmış faydalı istismar müddəti ərzində mənfəət və ya zərər hesabatında tanınır, çünki bu aktivin gələcək iqtisadi gəlirlərinin gözlənilən istifadəsini daha düzgün əks etdirir. Torpaq üzrə köhnəlmə hesablanmır.

28. Əsas uçot siyasətləri, davamı

Cari və müqayisə dövrləri üzrə əmlak, qurğu və avadanlıqların faydalı istismar müddəti aşağıdakı kimidir:

- binalar 20-40 years;
- ötürücü şəbəkələr 5-30 years;
- maşın və avadanlıqlar 3-35 years;
- nəqliyyat vasitələri və sair 3-12 years.

Amortizasiya metodları, faydalı istismar müddətləri və qalıq dəyərləri hər maliyyə ilinin sonunda nəzərdən keçirilir və lazım olduqda düzəlişlər edilir.

(h) Qeyri-maddi aktivlər

(i) Kompüter proqramı

Qeyri-maddi aktivlər kompüter proqramından ibarətdir. Qeyri-maddi aktivlər yığılmış amortizasiya və hər hansı yığılmış dəyərsizləşmə zərərləri çıxılmaqla ilkin dəyərində tanınır.

(ii) Sonrakı xərclər

Sonrakı xərc yalnız o halda kapitallaşdırılır ki, bu xərc aid olduğu xüsusi aktivin gələcək mənfəətini artırsın. Bütün digər xərclər çəkildiyi zaman mənfəət və ya zərərdə tanınır.

(iii) Amortizasiya

Amortizasiya aktivlərin dəyərindən onların qalıq dəyərini çıxmaqla hesablanır.

Amortizasiya qeyri-maddi aktivlərin istifadəyə hazır olduğu tarixdən etibarən onların gözlənilən faydalı istismar müddətləri ərzində düz xətt metodu ilə hesablanır, çünki bu, aktivin gələcək iqtisadi səmərəsinin gözlənilən istifadəsi ən doğru əks etdirir.

Cari və müqayisə dövrləri üzrə gözlənilən faydalı istismar müddətləri 10 ildir.

Amortizasiya metodları, faydalı istismar müddətləri və qalıq dəyərləri hər maliyyə ilinin sonunda nəzərdən keçirilir və lazım olduqda düzəlişlər edilir.

(i) Maliyyə alətləri

(i) Tanıma və ilkin qiymətləndirmə

Ticari debitor borcları ilkin olaraq yaradılarkən tanınır. Bütün digər maliyyə aktivləri və maliyyə öhdəlikləri Şirkət alət üzrə müqavilə tərəfinə çevrildikdə ilk dəfə tanınır.

Maliyyə aktivi (əhəmiyyətli maliyyə elementi olmayan ticari debitor borcu deyilsə) və ya maliyyə öhdəliyi MZƏD-də olmayan bənd üçün, alışı və ya buraxılışına birbaşa tətbiq edilən əməliyyat xərcləri daxil olmaqla, ədalətli dəyərdə ölçülür. Əhəmiyyətli maliyyə elementi olmayan ticari debitor borcları ilkin olaraq əməliyyat qiymətində ölçülür.

28. Əsas uçot siyasətləri, davamı

(ii) Təsnifat və sonrakı qiymətləndirmə

Maliyyə aktivləri – 1 yanvar 2018-ci il tarixindən tətbiq olunan siyasət

İlkin tanınma zamanı maliyyə aktivi aşağıdakı kimi təsnif edilir: amortizasiya edilmiş dəyərdə ölçülən; SMGƏD-də ölçülən – borc investisiyası; SMGƏD-də ölçülən – kapital investisiyası; və ya MZƏD-də ölçülən.

Şirkət maliyyə aktivlərinin idarə edilməsi üzrə biznes modelini dəyişdirməzsə (bu halda bütün aidiyyatlı maliyyə aktivləri biznes model dəyişəndən sonrakı ilk hesabat dövrünün ilk günündə təkrar təsnif edilir) maliyyə aktivi ilkin tanınmadan sonra təkrar təsnif edilmir.

Maliyyə aktivi aşağıdakı şərtlərə cavab verdikdə və MZƏD-də təyin edilmədikdə amortizasiya edilmiş dəyərdə ölçülür:

- aktiv məqsədi aktivləri müqavilə üzrə pul vəsaitlərini toplamaq üçün saxlamaq olan biznes modelində saxlanır; və
- aktiv üzrə müqavilə şərtləri əsas məbləğin və ödənilməli əsas məbləğ üzrə faiz ödənişlərinin müəyyən edilmiş tarixlərdə artmasına səbəb olur.

Maliyyə alətləri – Biznes modelinin qiymətləndirilməsi: 1 yanvar 2018-ci il tarixindən tətbiq olunan siyasət

Şirkət maliyyə aktivinin saxlandığı biznes modelinin məqsədini portfel səviyyəsində qiymətləndirir, belə ki, bu biznesin idarəetmə tərzini və rəhbərliyə təqdim olunan məlumatı daha yaxşı əks etdirir. Nəzərdən keçirilən məlumata daxildir:

- portfel üçün qeyd edilən siyasət və məqsədlər və bu siyasətlərin praktikada tətbiqi. Bura rəhbərliyin strategiyasının müqavilə üzrə faiz gəlirlərinin qazanılmasına, müəyyən faiz dərəcəsi profilini qorumağa, maliyyə aktivinin müddətinin əlaqədar öhdəliklərin müddətinə və ya gözlənilən pul vəsaitlərinin hərəkətinə uyğunlaşmasına və ya aktivlərin satılması yolu ilə pul vəsaitlərinin əldə olunmasına köklənib-köklənmədiyi daxildir;
- portfel üzrə fəaliyyət nəticəsi necə qiymətləndirilir və Şirkətin rəhbərliyinə necə məruzə edilir;
- biznes modelinin fəaliyyət nəticələrinə (və bu biznes modelində saxlanlan maliyyə aktivlərinə) təsir göstərən risklər və bu risklər necə idarə edilir;
- biznes rəhbərlərinə təzminat necə ödənilir – yəni təzminat idarə edilən aktivlərin ədalətli dəyərinə və ya müqavilə üzrə toplanan pul vəsaitlərinə əsaslanırmı; və
- əvvəlki dövrlərdə maliyyə aktivlərinin satış tezliyi, həcmi və müddəti, bu satışların səbəbi və gələcək satış fəaliyyəti ilə bağlı gözləntilər.

Maliyyə aktivlərinin tanınmanın dayandırılması sayılmayan əməliyyatlarda üçüncü tərəflərə ötürülməsi Şirkətin aktivləri davamlı tanımasına uyğun olaraq satış sayılmır.

Ticarət üçün saxlanılan və ya idarə olunan və fəaliyyət nəticəsi ədalətli dəyər əsasında ölçülən maliyyə aktivləri MZƏD-də ölçülür.

28. Əsas uçot siyasətləri, davamı

Maliyyə aktivləri – Müqavilə üzrə pul vəsaitlərinin yalnız əsas məbləğ və faiz ödənişi olub-olmadığının qiymətləndirilməsi: 1 yanvar 2018-ci il tarixindən tətbiq olunan siyasət

Bu qiymətləndirmə məqsədləri üçün "əsas"dedikdə ilkin tanınma zamanı maliyyə aktivinin ədalətli dəyəri başa düşülür. "Faiz" dedikdə pulun zaman dəyəri və müəyyən zaman dövründə ödənilməli əsas məbləğlə əlaqədar kredit riski və sair əsas kredit riskləri və xərcləri (məs., likvidlik riski və inzibati xərclər), eləcə də mənfəət marjası üçün ödəniş nəzərdə tutulur.

Müqavilə üzrə pul axınlarının yalnız əsas məbləğ və faiz ödənişləri olub-olmamasının qiymətləndirilməsində Şirkət alətin müqavilə şərtlərini nəzərə alacaq. Bu qiymətləndirmə maliyyə aktivində həmin aktivin bu şərtə əməl etməməsi ilə nəticələnən, müqavilə üzrə pul axınlarının müddəti və ya məbləğini dəyişə bilən müqavilə şərtinin olub-olmamasını əhatə edəcək. Qiymətləndirmə zamanı Şirkət aşağıdakıları nəzərə alacaq:

- pul vəsaitlərinin məbləğ və ya müddətini dəyişə bilən şərti hadisələr;
- vaxtından əvvəl ödəniş və vaxtın uzadılması xüsusiyyətləri; və
- şirkətin müvafiq aktivlərdən gələn pul vəsaitlərinə iddiasını məhdudlaşdıracaq şərtlər (məs., reqres hüququnun olmaması).

Avans məbləği əsasən ödənilməmiş əsas məbləğ və əsas məbləğ üzrə faiz məbləğindən ibarət olduqda (müqaviləyə vaxtından əvvəl xitam verilməsinə görə müvafiq əlavə təzminat da daxil ola bilər), vaxtından əvvəl ödəniş xüsusiyyəti yalnız əsas məbləğ və faiz meyarlarına uyğun gəlir. Əlavə olaraq, diskontlaşdırılmış dəyərdə və ya müqavilənin nominal məbləğinə mükafat kimi alınan maliyyə aktivi üçün, müqavilənin nominal məbləğini və yığılmış (lakin ödənilməmiş) müqavilə üzrə faizi (bura erkən xitama görə müvafiq əlavə təzminat da daxil ola bilər) əks etdirən məbləğdə vaxtından əvvəl ödənişə icazə verən və ya tələb edən xüsusiyyət bu meyara uyğun sayılır, o şərtlə ki, vaxtından əvvəl ödənişin ədalətli dəyəri ilkin tanınma zamanı əhəmiyyətsiz olsun.

Maliyyə aktivləri – Sonrakı qiymətləndirmə və gəlir və zərərlər: 1 yanvar 2018-ci il tarixindən tətbiq olunan siyasət

MZƏD-də ölçülən aliyyə aktivləri	Bu aktivlər sonradan ədalətli dəyərdə ölçülür. Hər hansı faiz və ya dividend gəlirləri daxil olmaqla xalis gəlir və zərərlər mənfəət və ya zərərdə tanınır.
Amortizasiya edilmiş dəyərdə ölçülən maliyyə aktivləri	Bu aktivlər sonradan effektiv faiz üsulundan istifadə etməklə amortizasiya edilmiş dəyərdə ölçülür. Amortizasiya edilmiş dəyər dəyərsizləşmə üzrə zərərlər hesabına azalır. Faiz gəliri, xarici valyuta mübadiləsindən yaranan fərqlər və dəyərsizləşmə mənfəət və ya zərərdə tanınır. Tanınmanın dayandırılmasından yaranan istənilən gəlir və ya zərər mənfəət və ya zərərdə tanınır.
SMGƏD-də ölçülən borc investisiyaları	Bu aktivlər sonradan ədalətli dəyərdə ölçülür. Effektiv faiz üsulu ilə hesablanan faiz gəliri, xarici valyuta mübadiləsindən yaranan fərqlər və dəyərsizləşmə mənfəət və ya zərərdə tanınır. Sair xalis gəlir və zərərlər SMG-də tanınır. Tanınma dayandırılarkən SMG-də yığılmış gəlir və zərərlər mənfəət və ya zərərdə təkrar təsnif edilir.
SMGƏD-də ölçülən kapital investisiyaları	Bu maliyyə aktivləri sonradan ədalətli dəyərdə ölçülür. Dividendlər aydın şəkildə investisiya xərclərinin bərpa olunan hissəsini təşkil etmədikdə gəlir kimi mənfəət və ya zərərdə tanınır. Sair xalis gəlir və zərərlər SMG-də tanınır və heç zaman mənfəət və ya zərərə köçürülmür.

28. Əsas uçot siyasətləri, davamı

Maliyyə aktivləri – 1 yanvar 2018-ci il tarixinədək tətbiq olunan siyasət

Şirkət maliyyə aktivlərini kredit və debitor borcları kateqoriyasında təsnif edir.

Maliyyə aktivləri – Sonrakı qiymətləndirmə və gəlir və zərərlər: 1 yanvar 2018-ci il tarixinədək tətbiq olunan siyasət

MZƏD-də ölçülən maliyyə aktivləri	Ədalətli dəyərdə ölçülürdü və müvafiq dəyişikliklər faiz və dividend gəlirləri daxil olmaqla mənfəət və ya zərərdə tanınırdı.
Ödəniş müddətinədək saxlanılan maliyyə aktivləri	Effektiv faiz üsulu ilə amortizasiya edilmiş dəyərdə ölçülürdü.
Kredit və debitor borcları	Effektiv faiz üsulu ilə amortizasiya edilmiş dəyərdə ölçülürdü.
Satıla bilən maliyyə aktivləri	Ədalətli dəyərdə ölçülürdü və müvafiq dəyişikliklər, dəyərsizləşmə üzrə zərərlər, faiz gəlirləri və borc alətləri üzrə xarici valyuta məzənnələrindəki fərqlər istisna olmaqla, SMG-də tanınır və ədalətli dəyər ehtiyatında yığılırdı. Bu aktivlərin tanınması dayandırılarkən kapitalda yığılan gəlir və ya zərər mənfəət və ya zərərə köçürülürdü.

Maliyyə öhdəlikləri – Təsnifat, sonrakı qiymətləndirmə və gəlir və zərərlər

Maliyyə öhdəlikləri amortizasiya edilmiş dəyərdə və ya MZƏD-də ölçülməklə təsnif edilir. Maliyyə öhdəliyi ticarət üçün saxlanılan alət kimi təsnif edildikdə, törəmə alət olduqda və ya ilkin tanınma zamanı törəmə alət kimi təyin edildikdə MZƏD qiymətində təsnif edilir. MZƏD-də olan maliyyə öhdəlikləri ədalətli dəyərdə ölçülür və xalis gəlir və zərərlər, faiz xərcləri daxil olmaqla, mənfəət və ya zərərdə tanınır. Sair maliyyə öhdəlikləri sonradan effektiv faiz üsulu ilə amortizasiya edilmiş dəyərdə ölçülür. Faiz xərcləri və xarici valyuta mübadiləsindən yaranan fərqlər mənfəət və ya zərərdə tanınır. Tanınmanın dayandırılmasından yaranan gəlir və ya zərər də mənfəət və ya zərərdə tanınır.

Şirkət sabit dərəcəli bank kreditlərinə malikdir və ARMB-nın təyin etdiyi əsas dərəcə dəyişdiyi halda bank bu kreditlər üzrə faiz dərəcəsini yeniləyə bilər. Şirkətin yenilənmiş dərəcəni qəbul etmək və ya cərimə ödəmədən krediti nominal dəyərdə ödəmək seçimi var. Şirkət bu kreditlərə üzən dərəcəli kreditlər kimi baxır.

(iii) Tanınmanın dayandırılması

Maliyyə aktivləri

Şirkət maliyyə aktivini tanımağı o zaman dayandırır ki, maliyyə aktivindən gələn pul vəsaitlərinə olan müqavilə hüquqlarının müddəti bitir və ya əməliyyatda müqavilə üzrə pul vəsaitlərini almaq hüququnu ötürür ki, bu halda maliyyə aktivlərinə sahib olmaqla bağlı bütün risklər və mülkiyyət hüquqları da ötürülür və ya Şirkət sahibliklə bağlı bütün riskləri və mülkiyyət hüquqlarını nə ötürür, nə də özündə saxlayır və maliyyə aktivinə nəzarəti özündə saxlamır.

Şirkət maliyyə vəziyyəti haqqında hesabatında tanınan aktivlərin ötürüldüyü əməliyyatlarda iştirak edir, lakin köçürülən aktivlər və ya onların bir qisminə aid risk və qazancların ya hamısını, ya da əhəmiyyətli hissəsini saxlayır. Belə hallarda ötürülən aktivlərin tanınması dayandırılmır.

28. Əsas uçot siyasətləri, davamı

Maliyyə öhdəlikləri

Şirkət müqavilə üzrə öhdəlikləri yerinə yetirildikdə və ya ləğv edildikdə və ya müddəti bitdikdə maliyyə öhdəliyini tanımağı dayandırır. Şirkət, həmçinin maliyyə öhdəliyinin tanınmasını onların şərtləri dəyişdikdə və dəyişmiş öhdəlik üzrə pul vəsaitləri əhəmiyyətli fərqləndikdə dayandırır. Belə olan halda dəyişmiş şərtlər əsasında yeni maliyyə öhdəliyi ədalətli dəyərdə tanınır.

Maliyyə öhdəliyinin tanınması dayandırılarkən balans məbləğləri arasındakı fərq əvəzləşdirilir və ödənilən məbləğ (ötürülən qeyri-nağd aktivlər və ya qazanılan öhdəliklər daxil) mənfəət və ya zərərdə tanınır.

(iv) Əvəzləşdirmə

Maliyyə aktivləri və öhdəliklərinin əvəzləşdirilməsi və xalis məbləğin maliyyə vəziyyəti haqqında hesabata daxil edilməsi yalnız və yalnız Şirkətin hazırda qeydə alınmış məbləğlərin əvəzləşdirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş hüququnun, eləcə də əvəzləşdirməni aparmaq və ya eyni zamanda aktivi realizasiya edərək öhdəliyi ödəmək niyyətinin olduğu hallarda həyata keçirilə bilər.

(j) Nizamnamə kapitalı

Adi səhmlər kapital kimi təsnif olunur. Adi səhmlərin və səhm opsionlarının buraxılmasına birbaşa aid edilən əlavə xərclər, vergi nəticələri çıxılmaqla, kapitaldan tutulma kimi tanınır.

Nizamnamə kapitalını artırmaq üçün əldə edilmiş, lakin qeydiyyata alınmamış hər hansı məbləğ, əlaqəli vergilər çıxılmaqla, əlavə ödənilmiş kapital kimi tanınır.

(k) Dəyərsizləşmə

(i) Qeyri-törəmə maliyyə aktivləri

1 yanvar 2018-ci il tarixindən tətbiq olunan siyasət

Maliyyə alətləri

Şirkət amortizasiya edilmiş dəyərdə ölçülən maliyyə aktivlərinin GKZ üzrə ehtiyatı tanıyır.

Ticari debitor borcları və müqavilə aktivlərinin zərəri üzrə ehtiyat hər zaman daimi GKZ-nə bərabər məbləğdə ölçülür.

İlkin tanınmadan sonra maliyyə aktivi üzrə kredit riskinin əhəmiyyətli dərəcədə artıb-artmadığını müəyyən edərkən və GKZ-ni hesablayarkən Şirkət əlavə xərc və ya səy tələb etmədən əldə olunan müvafiq əsaslandırılmış və dəstəkləyici məlumatı nəzərdən keçirir. Bura həm kəmiyyət, həm də keyfiyyət məlumatı, eləcə də Şirkətin tarixi təcrübəsinə, kredit qiymətləndirməsinə və proqnoz məlumatına əsaslanan təhlil daxildir.

Daimi GKZ-i maliyyə alətinin gözlənilən istifadə müddəti boyu mümkün bütün defolt hallarından yarana biləcək GKZ-dir.

12 aylıq GKZ gözlənilən kredit zərərlərinin hesabat müddətindən sonra 12 ay ərzində (və ya alətin gözlənilən istifadə müddəti 12 aydan azdırsa, daha az vaxt ərzində) defolt hadisələri nəticəsində baş verə biləcək qismidir.

GKZ-ni ölçərkən maksimal müddət Şirkətin kredit riskinə məruz qaldığı maksimal müqavilə müddətdir.

28. Əsas uçot siyasətləri, davamı

GKZ-nin ölçülməsi

GKZ kredit üzrə zərərlər ehtimalının hesablanmasıdır. Kredit üzrə zərərlər bütün pul vəsaitləri çatışmazlığının cari dəyəri kimi ölçülür (yəni müqavilə üzrə müəssisəyə ödənilməli pul vəsaitləri ilə Şirkətin almağı gözlədiyi pul vəsaitləri arasındakı fərq).

GKZ maliyyə aktivinin effektiv faiz dərəcəsində diskontlaşdırılır.

Kredit-dəyərsizləşmiş maliyyə aktivləri

Hər hesabat tarixində Bank amortizasiya dəyərində hesablanmış maliyyə aktivlərinin kredit-dəyərsizləşməsini qiymətləndirir. Maliyyə aktivi üzrə proqnoz edilən gələcək pul vəsaitlərinə mənfi təsir göstərən bir və ya daha çox hadisə baş verdikdə maliyyə aktivi "kredit-dəyərsizləşmiş" sayılır.

Aşağıdakı müşahidə edilə bilən məlumatlar maliyyə aktivinin kredit-dəyərsizləşdiyini sübut edir:

- borcalan və ya borc verənin əhəmiyyətli maliyyə çətinliyi yaşaması;
- müqavilə şərtinin pozulması, məsələn, defolt və ya gecikdirmə;
- borc alanın müflis olacağı və ya maliyyə-təşkilati strukturunun dəyişəcəyi ehtimal edildikdə.

Maliyyə vəziyyəti haqqında hesabatda GKZ üzrə ehtiyatın təqdimatı

Amortizasiya edilmiş dəyərdə ölçülən maliyyə aktivləri üzrə zərər ehtiyatları aktivlərin ümumi balans dəyərindən tutulur.

Silinmə

Şirkət maliyyə aktivini tam şəkildə və ya bir qismini bərpa etmək üçün əsaslı gözləntiləri olmadığı təqdirdə həmin maliyyə aktivinin ümumi balans dəyərini silir.

1 yanvar 2018-ci il tarixinədək tətbiq olunan siyasət

Qeyri-törəmə maliyyə aktivləri

MZƏD-də təsnif edilməyən maliyyə aktivləri dəyərsizləşməyə dair obyektiv sübutun olub-olmadığını müəyyən etmək məqsədilə hər hesabat tarixində qiymətləndirilir. Zərərin aktivin ilkin tanınmasından sonra baş verdiyinə və aktiv üzrə etibarlı şəkildə hesablanıla bilən gələcək pul vəsaitlərinin axınına mənfi təsir göstərdiyinə dair obyektiv sübut olduqda maliyyə aktivi dəyərdən düşmüş sayılır.

Maliyyə aktivinin dəyərdən düşdüyünə dair obyektiv sübutlar aşağıdakı kimidir:

- borcalanın ödənişi gecikdirməsi və ya ödəmə qabiliyyətini itirməsi;
- Şirkətə ödəniləcək məbləğin Şirkətin dəyişdirməyəcəyi şərtlər əsasında restrukturizasiyası;
- borcalan və ya borcverənin iflas olacağına dair əlamətlər;
- borcalanlar və ya borcverənlərin ödəmə statusunda mənfi dəyişikliklər;
- defoltla səbəb olan iqtisadi şərait; və ya
- maliyyə aktivləri qrupu üzrə gözlənilən pul vəsaitlərində ölçüləbilən azalmanın olmasına dair müşahidə edilə bilən məlumatın olması

28. Əsas uçot siyasətləri, davamı

Amortizasiya edilmiş dəyərdə ölçülən maliyyə aktivləri

Şirkət bu aktivlər üzrə dəyərsizləşmənin sübutunu həm fərdi, həm də kollektiv səviyyədə nəzərdən keçirirdi. Fərdi əhəmiyyətli bütün aktivlərin dəyərsizləşməsi fərdi olaraq qiymətləndirilirdi. Dəyərsizləşmədiyi müəyyən edilən aktivlər sonradan kollektiv olaraq baş vermiş, lakin fərdi şəkildə hələ aşkar edilməmiş dəyərsizləşmə baxımından qiymətləndirilirdi. Fərdi əhəmiyyəti olmayan aktivlərin dəyərsizləşməsi kollektiv şəkildə qiymətləndirilirdi. Kollektiv qiymətləndirmə oxşar risk xüsusiyyətləri olan aktivləri qruplaşdırmaqla həyata keçirilirdi.

Kollektiv dəyərsizləşməni qiymətləndirərkən Şirkət bərpa müddətləri və zərər məbləğlərinə dair keçmiş məlumatdan istifadə edir, cari iqtisadi və kredit şəraitinə görə faktiki zərərlərin keçmişdə olduğundan daha çox və ya daha az olduğu ehtimal edildikdə müvafiq düzəlişlər edirdi.

Dəyərsizləşmə üzrə zərər aktivin balans dəyəri ilə hesablanmış gələcək pul vəsaitlərinin aktivin ilkin effektiv faiz dərəcəsində diskontlaşdırılmış cari dəyəri arasında fərq kimi hesablanır. Zərərlər mənfəət və ya zərərdə tanınır və ehtiyat məbləğində əks olunur. Şirkət aktivin bərpasına dair real perspektivin olmadığı qənaətinə gəldikdə müvafiq məbləğ silinir. Sonradan dəyərsizləşmə üzrə zərər məbləği azaldıqda və azalma obyektiv olaraq zərər tanındıqdan sonrakı hadisələrlə bağlı olduqda əvvəl tanınan dəyərsizləşmə üzrə zərər məbləği mənfəət və ya zərərdə bərpa olunurdu.

Qeyri-maliyyə aktivləri

Mal-material ehtiyatları və təxirə salınmış vergi xaric, şirkətin qeyri-maliyyə aktivlərinin balans dəyərləri dəyərsizləşmə əlamətlərinin olub-olmadığını müəyyən etmək üçün hər hesabat tarixində nəzərdə keçirilir. Belə bir əlamət olduqda aktivin bərpa oluna bilən məbləği hesablanılır.

Dəyərsizləşmə yoxlaması məqsədilə fərdi yoxlanıla bilməyən aktivlər davamlı istifadə nəticəsində pul vəsaitləri yaradan və digər aktivlər və ya PYV-dən geniş mənada müstəqil olan kiçik aktivlər qrupunda qruplaşdırılır.

Şirkətin korporativ aktivləri ayrıca olaraq daxil olan pul vəsaitləri yaratmır və birdən çox PVYV tərəfindən istifadə edilir. Korporativ aktivlər əsaslı və davamlı şəkildə PVYV-ə paylanmışdır və korporativ aktivin təhkim edildiyi PVYV-nin yoxlanılmasının bir hissəsi olaraq dəyərsizləşmə üzrə yoxlanılır.

Bərpa oluna bilən aktiv və ya PVYV məbləği onun istifadədə olan dəyərindən böyükdür, ədalətli dəyəri isə satış xərclərindən kiçikdir. İstifadədə olan dəyəri ölçərkən hesablanmış gələcək pul vəsaitlərinin hərəkəti cari dəyərinədək diskontlaşdırılır. Bu zaman pulun zaman dəyərinin cari bazar qiymətləndirməsi və aktiv və ya PVYV üçün spesifik riskləri əks etdirən vergidən əvvəlki diskont dərəcəsi tətbiq olunur.

Dəyərsizləşmə üzrə zərər aktivin və ya təhkim edildiyi pul vəsaitləri yaradan vahidin (PVYV) balans dəyəri hesablanmış bərpa oluna bilən məbləğindən çox olduqda tanınır.

Dəyərsizləşmə üzrə zərərlər mənfəət və ya zərərdə tanınır. PVYV-lərinin dəyərsizləşməsi üzrə zərər PVYV-də (PVYV qrupunda) olan digər aktivlərin balans dəyərini azaltmaq üçün mütənasib şəkildə paylanılır.

28. Əsas uçot siyasətləri, davamı

Əvvəlki dövrlərdə tanınmış dəyərsizləşmə zərərləri hər hesabat tarixində zərərin azalması və yay ox olmasının əlamətləri baxımından qiymətləndirilir. Bərpa oluna bilən məbləği müəyyən etmək üçün istifadə olunan hesablamalarda dəyişiklik olduqda dəyərsizləşmə zərəri bərpa olunur. Dəyərsizləşmə üzrə zərər aktivin balans dəyəri dəyərsizləşmə üzrə zərər tanınmadığı halda köhnəlmə və amortizasiya çıxılmaqla qala biləcək balans dəyərindən yüksək olmayacağı həddə bərpa olunur.

(l) Ehtiyatlar

Baş vermiş hadisə nəticəsində Şirkətin etibarlı şəkildə qiymətləndirilə bilən hüquqi və ya konstruktiv öhdəliyi yarandıqda və öhdəliyi icra etmək üçün iqtisadi faydaların ödənilməsinin tələb olunacağı ehtimal olunduqda, ehtiyat tanınır. Ehtiyatlar, pulun zaman dəyəri və öhdəliklə bağlı risklərin cari bazar qiymətləndirmələrini əks etdirən vergidən əvvəlki dərəcə əsasında gözlənilən gələcək pul axınlarının diskontlaşdırılması ilə müəyyən olunur. Diskontların açılışı maliyyə xərci kimi tanınır.

(i) Əmək qabiliyyətinin itirilməsi ilə bağlı ödənişlər üzrə ehtiyat

Azərbaycan Respublikası Əmək Məcəlləsinə uyğun olaraq Şirkət işçilərinə iş zamanı səhhətlərinə dəymiş zərərin əvəzini ödəməli, eləcə də işçi işdə ölərsə, ailə üzvlərinə kompensasiya ödəməlidir. Bu zaman yerli şərtlərə və tələblərə uyğun olaraq qiymətləndirilmiş gələcək xərcin cari dəyəri əks etdirilir.

(m) İcarələr

(i) Müqavilədə icarə elementinin olub-olmadığının müəyyən edilməsi

Müqavilənin başlanğıcında Şirkət bu müqavilənin icarə müqaviləsi olmasını və ya müqavilənin daxilində icarənin olmasını müəyyən edir. Bu o halda baş verir ki, müqavilənin icrası xüsusi aktivin istifadəsindən asılı olur və müqavilədə həmin aktivdən istifadə etmək hüququ qeyd olunur.

Müqavilənin başlanğıcında və ya yenidən qiymətləndirilməsində Şirkət ödənişləri və bu müqavilə üzrə tələb olunan digər ödənişləri ədalətli dəyər əsasında icarə və digər elementlər üçün hissələrə ayırır. Şirkətin qərarı ilə maliyyə icarəsi ödənişlərini etibarlı şəkildə ayırmaq mümkün olmadığı halda, aktiv və öhdəlik əsas aktivin ədalətli dəyərinə bərabər məbləğdə tanınır. Nəticədə öhdəlik baş verən ödənişlər qədər azalır və öhdəlikdəki şərti maliyyə xərci Şirkətin borc kapitalı üzrə marjinal faiz dərəcəsindən istifadə olunmaqla tanınır.

(ii) İcarəyə verilmiş aktivlər

Sair icarələr və icarəyə verilmiş aktivlər Şirkətin maliyyə vəziyyəti haqqında hesabatında tanınmır.

(iii) İcarə ödəmələri

Əməliyyat icarələri üzrə edilən ödənişlər icarə müddəti boyu mənfəət və ya zərərdə düz xətli metodla tanınır. İcarə güzəştləri icarə müddəti boyu cəmi icarə xərclərinin tərkib hissəsi kimi tanınır.

29. Qəbul edilməmiş yeni standartlar və şərhlər

1 yanvar 2019-cu il tarixindən başlayaraq illik dövrlər üçün iki yeni standart qüvvəyə minmişdir və onların erkən tətbiqinə icazə verilir. Şirkət bu maliyyə hesabatlarını hazırlayarkən yeni və ya düzəliş edilmiş standartları əvvəlcədən tətbiq etməmişdir.

Qüvvəyə minməmiş standartlardan MHBS 16-nın ilkin tətbiq dövründə Şirkətin maliyyə hesabatlarına əhəmiyyətli təsir göstərəcəyi gözlənilir.

(a) MHBS 16 İcarələr

Şirkət 1 yanvar 2019-cu il tarixindən başlayaraq MHBS 16 İcarələri tətbiq etməlidir. Şirkət MHBS 16-nın ilkin tətbiqinin onun maliyyə hesabatlarına göstərəcəyi təsiri aşağıdakı şəkildə qiymətləndirmişdir. 1 yanvar 2019-cu ildə tətbiq ediləcək standartın faktiki təsirləri fərqli ola bilər, belə ki:

- Şirkət yeni İT sistemlərinə nəzarət sınaqları və qiymətləndirməni hələ yekunlaşdırmayıb; və
- yeni uçot siyasətləri Şirkətin ilkin tətbiq tarixinin daxil olduğu ilk maliyyə hesabatlarını təqdim etdiyi tarixədək dəyişə bilər.

MHBS 16 icarəçilər üçün vahid, balans üzrə icarə uçotu modelini təqdim edir. İcarəçi aktivdən istifadə hüququnu təqdim edən aktivi və icarə ödənişləri etmək öhdəliyini təqdim edən icarə öhdəliyini tanıyır. Qısamüddətli icarələr və aşağı dəyərli maddələrin icarələri üçün əlavə istisnalar mövcuddur. İcarədarın uçotu cari standarta oxşar olaraq qalır – yəni icarədarlar icarələri maliyyə və ya əməliyyat icarələri kimi təsnif etməyə davam edirlər.

MHBS 16, BMUS 17 İcarələr, BMHŞK 4 Müqaviləyə icarə elementinin daxil olub-olmadığının müəyyən edilməsi, ŞDK Əməliyyat İcarələri – Stimullar və ŞDK-27 İcarənin Hüquqi Forması ilə olan Əməliyyatların Mahiyyətinin Qiymətləndirilməsi daxil olmaqla, mövcud icarələr təlimatında dəyişikliklər edir.

(i) Şirkətin icarəçi olduğu icarələr

Şirkət əməliyyat icarələri üçün yeni aktiv və öhdəlikləri tanıyacaq. Bu icarələrlə bağlı xərclərin təbiəti artıq dəyişəcək, belə ki, Şirkət istifadə hüququ aktivləri üzrə köhnəlmə xərcləri və icarə öhdəlikləri üzrə faiz xərclərini tanıyacaq.

Əvvəllər Şirkət əməliyyat icarələri üzrə xərcləri düz xətli metodla icarə müddəti boyu tanıyırdı və aktiv və öhdəlikləri yalnız faktiki icarə ödənişləri və tanınmış xərclər arasında zaman fərqi olduğu təqdirdə tanıyırdı.

Hazırki məlumata əsasən Şirkət bütün icarə razılaşmalarının müvəqqəti olduğunu nəzərə alaraq 1 yanvar 2019-cu il tarixinə əlavə istifadə hüququ aktivləri və icarə öhdəlikləri tanımayacağını ehtimal edir.

(ii) Keçid

Şirkət MHBS 16-nı ilkin olaraq dəyişdirilmiş retrospektiv yanaşmadan istifadə etməklə 1 yanvar 2019-cu il tarixindən tətbiq etməyi planlaşdırır. Odur ki, MHBS 16-nı tətbiqinin cəmi effekti müqayisəli məlumat üzrə təkrar hesabat verilmədən 1 yanvar 2019-cu il tarixində bölüşdürülməmiş mənfəətin açılış balansına düzəliş şəklində tanınacaq.

29. Qəbul edilməmiş yeni standartlar və şərhlər , davamı

Şirkət keçid zamanı icarə anlayışından azada olmaq seçimindən istifadə etməyi düşünür. Bu o deməkdir ki, Şirkət 1 yanvar 2019-cu il tarixinədək bağladığı və BMUS 17 və BMHŞK 4-ə əsasən icarə adlandırdığı bütün müqavilələrə MHBS 16-nı tətbiq edəcək.

(b) Sair standartlar və şərhlər

Aşağıdakı düzəliş edilmiş standartların və şərhlərin Şirkətin maliyyə hesabatlarına əhəmiyyətli təsiri gözlənilmir.

- *BMHŞK 23 Vergi hesablanması ilə bağlı qeyri-müəyyənlik*
- *Mənfi təzminatlı vaxtından əvvəl ödəniş xüsusiyyətləri (MHBS 9-a düzəlişlər)*
- *Asılı və birgə müəssisələrdə uzunmüddətli faizlər (BMUS 28-ə düzəlişlər);*
- *Plana düzəlişlər, İxtisar və ya Hesablaşma (BMUS 19-a Düzəlişlər);*
- *MHBS 2015-2017 Dövründə illik təkmilləşdirmələr – müxtəlif standartlar;*
- *MHBS Standartlarında Konseptual Sənədə İstinadlara düzəlişlər;*
- *MHBS 17 Sığorta müqavilələri*